and other ophthalmology Schools visited Baku many times. She supported the joint works between doctors of our republic and doctors from other cities, assisted solving the problems existing in science. So, her large experience was generalized in monograph «Actual problems of ophthalmology» jointly with N.Shulpina and L.Moshetova.

Another work is of great importance, joint work of Zarifa khanum Aliyeva and Nina Shulpina dedicated to iridology. Life of wonderful doctor and person continues in her works, which are urgent today as well and we can hardly imagine the library of today's ophthalmologists without these works.

The life of Zarifa khanum also continues in her traditions related to meeting of professional – colleagues. We found poster dedicated to memory of Zarifa khanum Aliyeva in International Clinics of Eyes Diseases headed by me. I am the editor of the journal «Iridologiya».

And according to numerous photos and documents, books which are demonstrated on posters we can trace the life of dear and respected woman: here we see the eyes of happy girl near with her father. Another photo – the eyes of wise doctor caring her patients. Next – the eyes of young wife with her life pillar – Heydar Aliyev. And here the eyes of happy mother. And at last the eyes of woman saying farewell to this world and desiring a good will, happy existence to everybody. It is truly indeed: The eyes are mirror of the soul.

**VASIM MAMMADALIYEV,**
***The academician, the dean of theological faculty in Baku State University***

The role of woman in society is great indeed! If we observe the history of Azerbaijan woman we can see that her life way was very complex way but worth of admiration, as for example Tomris, Nushaba, Burla khatun, Momina khatun and others. In the most difficult periods of history these woman demonstrated how woman's intelligence, consideration, wisdom and farsightness influenced greatly on formation of society. Woman was always the biggest pillar for man.

Azerbaijan reality provided poets and thinkers rich historical material to extol woman as life source and wisdom embodiment. Outstanding poet and thinker Nizami created such women's images in his works. Feelings of Mehseti expressed in rubai (poems) of that time, further they reflected in works of Khurshud Banu Natavan, Kheiran khanum, Ashug Basti and Ashug Pyari.

People with unique talent and intelligence possess generous soul.

Our people has such women who symbolize the whole epoch in some fields of science and culture, they are: Zarifa khanum Aliyeva, Umnisa khanum Musabekova, Nigar khanum Rafibeili, Aida khanum Imanguliyeva, Zehra khanum Guliyeva, Hajar khanum Nasrullayeva, Pusta khanum and many others; they are the best representatives of our intelligentsia. They are the models of public serving to their country and people.

Azerbaijan people will never forget these noble women.

Truly the role of the Azerbaijan woman, Azerbaijan mother is very great in preservation of national cultural wealth, in education of young generation. Worthy and proud mothers of the Azerbaijan people like Hajar and Nigar always went in advance in various areas, created history. From this point of view academician Zarifa khanum Aliyeva, professor Aida khanum Imanguliyeva, were irreplaceable mothers, true wives, self-denying scientists, unusual persons. Their light and wise image for ever remains in memory of people.

Aida khanum Imanguliyeva in true sense of this word was the fine person, remarkable mother, the talented organizer. Aida khanum Imanguliyeva was the true Azerbaijan woman. In her all positive female lines have been collected. As scientist Aida khanum was truly unique. She also was the fine teacher. Long time she taught the Arabian literature at oriental studies faculty of Azerbaijan and Russian branches. At that time I was the dean of this faculty. Aida khanum has lifted institute work on very high level. Today students with pride continue her ideas. Aida khanum was irreplaceable as mother, as the woman, as the wife, as the friend. She differed that was able to be on friendly terms on the present. In a word, she was the fine person. All these qualities originate from noble roots. She was brought up by the father, known journalist Nasir Imanguliyev and mother Hajar khanum. Further she as the daughter-in-law has entered into a family of the known writer and critic Mirjalal Pashayev and Pusta khanum. Then, she very much was proud of that has become related with the national Leader Heydar Aliyev and academician Zarifa khanum Aliyeva. In her life played the big role related relations with such outstanding person as Heydar Aliyev, and with such gentle, fine woman as Zarifa khanum.

Zarifa khanum was true mother of our people, the careful woman and good-natured, the gentle person. She used boundless respect in Azerbaijan. She always recollect with love and respect. She has presented to Azerbaijan such son as Ilham Aliyev. Naturally, Zarifa khanum was the most worthy follower of ideas of Heydar Aliyev, she has presented to Azerbaijan the remarkable person, politician promptly developing in modern conditions, dear Ilham Aliyev. And Aida khanum Imanguliyeva has presented to Azerbaijan such big scientist, as Mehriban khanum. She also is the spouse of our president and the first lady of the country. Both Ilham and Mehriban khanum Aliyeva left such most worthy families which imitations always were an example for all. In many questions Mehriban khanum worthy support to our dear president. It has revived Azerbaijan Mugam. It actively works in a direction of building and restoration of schools of assistance to patients with talassemia, patronises children's homes, heads fund of Heydar Aliyev, is the ambassador of good will of UNESCO and ISESCO, the First Vice president of Azerbaijan Republic. Activity and diligence of this self-denying woman the big support to our president. Because Mehriban khanum is a member of this outstanding family.

Destinies of academician Zarifa khanum Aliyeva and Aida khanum Imanguliyeva are similar among themselves. Both these fine women have early left this world. They have lived a short life, but have lived it in full sense of this word. Their life has been filled by sense. Nobleness, kindness, ability to become support in a difficult minute were inherent in both of them. Zarifa khanum gave pleasure to people, returned them light. I know the person who was brought down by the car, and he has almost lost sight. Zarifa khanum was in earnest about such position very much and has managed not to allow to him to go blind. Zarifa khanum in full sense of this word was the true Azerbaijan woman, the person with pure and fine soul. Because she was born and has grown in great Aziz Aliyev's family. Not everyone manages to live a worthy life.

Both these women, for the short life enlightened people the knowledge and experience, were able to be it support in a difficult minute. It is necessary to remember, honour and protect piously always light memory of these fine women, of their unforgettable, noble affairs. If we will not do it, if we will forget, we will lose ourselves.

**OMAR ELDAROV,**
***The rector of the Azerbaijan State Art Academy, the national artist of republic***

I have got acquainted with Zarifa khanum by a lucky chance. In Nakhchyvan I prepared the bust of twice hero of Socialist Work of H.Alirza oglu Aliyev. I put all my forces and abilities to make the bust of the nice son of our people figurative and made. It was extremely responsible work. Zarifa khanum made me a honour and visited my workshop on this occasion twice. She looked at a bust for a long time, sometimes brought such offers, that simply amazed me. After all she was the big scientist instead of the sculptor. Then I could not hide the surprise and asked her how she knew the secrets of the sculptors skill? She having smiled answered: «For this purpose it is not necessary to be the sculptor. Nobody can know the person you created in marble better than me». At this time I, independently of myself could embody her light image in my memory. And when Zarifa khanum left this world, the elegy about her light image was born in my soul. The elegy - means memory. Solemn and at the same time sad feeling. It is devoted to separate people by means of music and poetry. It occurs from the desire to immortalise the person, to prolong his life and consequently differs high art style. I, overwhelmed with such sad feelings began to think at her noble and gentle image.

White colour is a cleanliness of symbol. The Snow-whiteness of marble - indestructibility of force of a stone. Soft, sliding folds of clothes, gentle features, graceful hands, her internal light. The Music created in a stone. This monument is devoted to the woman who passed a worthy way. This woman is the talented scientist, the public figure, the wife and mother Zarifa khanum Aliyeva. The monument has been created after her leaving this life and consequently as well as other products devoted to her light memory - is named sad and at the same time solemnly - «Elegy». This custom takes roots from the native land of a classical sculpture - ancient Hellas. There the master to immortalise the outstanding compatriots wrote verses singing of them and music, created forever the poems embodied in a stone.

The artist Omar Eldarov continues: The work at the image of Zarifa khanum has begun in 1986. After long searches and considerations of various variants, after councils with H.Aliyev and other members of a family, last variant of the sketch at last has been chosen. Two years of serious work at creation of this product were conducted. Then the work on marble polishing was made. The sizes of the marble block brought of the Ural stone open-cast mine «Koelga» were 2,5 x 2,0 x 2,0 metres.

In 1989 the work at the monument creation was finished. The sizes of ready product were 1,2 x 0,8 x 1,8 metres. We with architect Elbeem Gasymzade, began work at a bronze monument in 1993 with and finished in 2 years. This monument since 1995 is erected in the alley of the Honourable Burial. After that in 1995 the marble bust of the outstanding scientist was made and placed in the Central Hospital of Nakhchyvan. In 1996 on a building where Zarifa khanum lived a granite memorial board was placed. After a while the monument made of white marble was erected in front of the ophthalmologic centre. Besides it the marble bust for the Azerbaijan scientific research institute of Eye Illnesses was made. For Physiology institute bronze and granite memorial boards were made.

# AKADEMİK ZƏRİFƏ XANIM ƏLİYEVA

İşıq-zülmət... Dünyanın qoşa təzadı. Ana bətninin zülmətindən azad olan insan ömrü boyu zülmətdən işığa doğru yol gedir. Bu yollar öz işıq və zülməti ilə insanlara bərabər paylanmır - kimisi üçün çılçıraqlı, al-əlvan, kimisi üçünsə zülmət, lap zülmət olur və onlar işıqlı dünyaya həsrətli gözlərlə can atır. Kimisi isə bu gözlərin işığına çevrilir...

Xalqımızın fədakar qızı Zərifə xanım Əliyeva da neçə-neçə gözlərin işığına dönmüş, özü də işıq olub parlamışdı. Akademik Zərifə xanım Əliyeva insanları zülmət pəncəsindən qoparıb işığa qovuşduran, ziyasını itirmiş gözlərə nur çiləyən nəcib insan idi. Qibtə ediləcək bir tale yaşamışdı, təkcə alimliyi, həkimliyi ilə yox, dövlət xadiminin qızı, dövlət xadiminin ömür-gün yoldaşı kimi...

İndi aramızda olmayan, yalnız qəlblərdə yaşayan Zərifə xanımın nəcib əməlləri dostlarının, həmkarlarının, doğmalarının xatirələrində təkrar-təkrar kəşf edilir və onun işıqlı xatirəsi bu gün də məmnunluqla yad olunur. Uzun illər yaşadığımız qapalı cəmiyyətdə yalnız ölkənin birinci şəxsinin həyat yoldaşı kimi tanıdığımız Zərifə xanımın Azərbaycan səhiyyəsinin inkişafı naminə etdiklərindən və eləcə də əldə etdiyi elmi nailiyyətlərdən bir o qədər də danışılmırdı...

«Akademik Zərifə xanım Əliyeva» adlı kitabda isə biz bir yaz günündə dünyaya göz açan və təbiətin oyandığı günlərin birində əbədiyyətə qovuşan böyük insan, görkəmli alim, əvəzolunmaz həyat yoldaşı, qayğıkeş ana haqqında xatirələri sizlərə təqdim etməklə özümüzə bir qədər təsəlli vermiş oluruq. İnanırıq ki, kitabı oxuyan insanlar akademik Zərifə Əziz qızı Əliyeva haqqında bilgilərini daha da zənginləşdirəcək və bununla da biz müqəddəs bir ruhu şad edəcəyik.

Görkəmli alim Zərifə Əziz qızı Əliyeva 1923-cü il 28 aprel tarixində Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə həmin institutu müvəffəqiyyətlə bitirmişdir. Sonralar Moskvada Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçmişdir. Elmi-tədqiqatlara sonsuz marağı onu Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutuna gətirib çıxarmış, orada həkim ordinator kimi fəaliyyətini davam etdirmişdir.



Zərifə xanım Əliyevanın aspiranturanı bitirib, elmi işçi kimi fəaliyyət göstərdiyi illərdə Azərbaycanda traxoma xəstəliyi geniş yayılmışdı. Nəticədə bu xəstəlik korluq hallarının ən geniş yayılmış səbəblərindən biri kimi dəhşətli ictimai bəlaya çevrilmişdi. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən o dövrdə dünyada dörd yüz milyon nəfər traxoma xəstəliyinə yoluxmuş, səksən milyon nəfər isə bu səbəbdən dünya işığına həsrət qalmışdı. Oftalmoloqlar yaxşı bilir ki, tədqiqatın klinikada, institutdan kənarda aparılması hansı əziyyətlər hesabına başa gəlir. Bu çətinliklərə baxmayaraq, istedadlı mütəxəssis Zərifə xanım dissertasiya üzərində işləyərkən öz araşdırmalarını bir neçə müəssisədə təcrübədən çıxarmağa nail olmuş, yüzlərlə, minlərlə xəstəni müayinədən keçirə bilmişdi. Göründüyü kimi, Zərifə xanımın ilk elmi tədqiqatlarının mövzusunu həyat özü diktə etmiş və gərgin əməyin uğurla yekunlaşması isə onun yüksək daxili mütəşəkkilliyi və eləcə də məqsədyönlü və inadkar fəaliyyəti nəticəsində mümkün olmuşdur. Xüsusi vurğulanmalıdır ki, Zərifə xanım tədqiqat üçün elmi mövzular seçərkən problemlərə milli və dövlətçilik maraqlarından yanaşmağa üstünlük verərdi.

Həmin illərdə traxomaya qarşı təsirli müalicə üsulları kifayət qədər olmadığından onunla mübarizə təkcə oftalmologiya elmi üçün deyil, Azərbaycan təbabəti üçün mühüm əhəmiyyət kəsb edirdi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicə-profilaktik tədbirlərin təşkilində, keçirilməsində fəal iştirak edirdi. Belə ki, o, traxoma xəstəliyinin daha çox yayıldığı rayonlara gedir, əhali arasında maarifləndirmə işi aparırdı. Zərifə xanım elmi-tədqiqat işini traxomanın müalicəsində və onun ağırlaşdığı hallarda daha təsirli vasitələrin öyrənilməsinə o dövr üçün yeni antibiotikdən - sintomisindən istifadə olunmasına həsr etmişdi. Çünki sintomisin geniş antibakterial vasitə olmaqla yanaşı, antixlamidiya fəallığına malik idi. Zərifə xanım Əliyevanın bu istiqamətdə apardığı tədqiqatları 1960-cı ildə uğurla müdafiə etdiyi «Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi» mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil etdi.

Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı Zərifə xanım Əliyeva oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi. Bu məsələlər sırasında diaqnostika, qlaukoma və görmə orqanının iltihabı xəstəliklərinin müalicəsinə də ciddi diqqət göstərirdi. Oftalmologiyanın elmi cəhətdən az araşdırılmış sahəsi - görmə orqanının peşə patologiyası isə onun xüsusi maraq dairəsində idi. Eyni zamanda qlaukoma xəstəliyi ilə bağlı problemlər də gənc alimi ciddi düşündürürdü. Zərifə xanımın qlaukoma xəstəliyi ilə bağlı apardığı ciddi elmi tədqiqatların uğurlu nəticələri isə o dövr üçün klinik göz xəstəlikləri sahəsində çalışan həkimlərin biliklərinin güclənməsində müstəsna rol oynamışdı. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz Xəstəlikləri kafedrasında işlədiyi müddətdə də Zərifə xanım bir çox cərrahiyyə əməliyyatlarında iştirak etməklə yanaşı, oftalmologiya ilə bağlı təşkilatlar və İnstitutun şöbələrini

səfərbər edərək göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə böyük elmi-pedaqoji iş aparırdı.

1968-ci ildə isə Z.Əliyeva məqsədyönlü şəkildə görmə orqanının peşə patologiyası üzrə işlərini davam etdirməyə başladı. Bu zaman o, yod sənayesi müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanına təsir edən amillərə xüsusi diqqət yetirirdi. Zərifə xanım qeyd olunan problem üzərində iş apararkən bilavasitə sənaye müəssisələrinə gedir, zərərli peşə sahələrində çalışan insanları oftalmoloji müayinə edirdi. Bakının və Sumqayıtın bir sıra sənaye müəssisələrində, şin zavodunun sexlərində, laboratoriya şəraitində araşdırmalar keçirirdi. Zəngin klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas cəhətlərini üzə çıxara bilmişdir. Uzun illərin müşahidəsi, klinik tədqiqatların, eksperimentlərin yekunları Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının bünövrəsini qoyur. Bir neçə ildən sonra o, «Azərbaycanın bir sıra kimya müəssisələrinin işçilərinin görmə orqanının vəziyyəti» mövzusunda yazdığı dissertasiya işini yekunlaşdırır və dünyanın ən tanınmış oftalmologiya mərkəzlərindən biri kimi şöhrətlənən Helmholts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyasını uğurla müdafiə edir. Dissertasiya bu sahədə ilk əsərlərdən biri kimi alim oftalmoloqlar tərəfindən yüksək qiymətləndirilir. İstedadlı alimə 1977-ci ildə tibb elmləri doktoru alimlik dərəcəsi verilir. Bundan sonra Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasının professoru, bir neçə ildən sonra isə həmin kafedranın müdiri seçilir. Zərifə xanım Əliyeva öz ənənəsini davam etdirərək istedadlı gəncləri öz ətrafına toplayaraq elmi-tədqiqat işlərini, kadrların və elmi əməkdaşların hazırlanması prosesini uğurla davam etdirir. Amma kafedrada olan mövcud baza elmi-tədqiqatların keçirilməsi üçün yetərli deyildi. Zərifə xanım bu problemin həlli üçün bir sıra konkret təkliflər irəli sürür və 1977-ci ildə məhz onun təşəbbüsü ilə Bakı şəhərində ilk dəfə olaraq Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin Bakı plenumu keçirilir. Tədbiri həyata keçirmək üçün böyük təşkilatçılıq bacarığı və zəngin təcrübə tələb olunurdu. Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin Bakı plenumunun uğurla keçirilməsi həm ölkəmizdə, həm də keçmiş ittifaqın ən aparıcı müəssisələrində, oftalmologiya xidmətinin inkişafında, habelə elmi-pedaqoji kadrların hazırlanması işinə böyük köməklik göstərdi.

Yuxarıda qeyd etdiyimiz kimi, istedadlı alim, kamil mütəxəssis və təşkilatçı olan professor Z.Ə.Əliyeva peşə ilə əlaqədar yaranan göz xəstəliklərinin patologiyasını sənayedə çalışan işçilərin nümunəsində araşdırmaq məqsədilə Bakı Kondisionerləri zavodunda və eləcə də Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda xüsusi elmi-tədqiqat laboratoriyalarının yaradılmasına nail olur. Təbii ki, birdən-birə əmək fəaliyyətinin bütün sahələrini əhatə etmək və hər sahədə görmə qabiliyyətinin mühafizəsi üçün başlıca olaraq hansı tələblərin olduğunu müəyyən etmək çətin idi. Belə olan halda, təbii ki, nədən başlamaqdan çox şey asılıdır. Zərifə xanım buna



da nail olur. O, ilk olaraq kimya sənayesində çalışan işçilərin göz xəstəliyi problemlərini öyrənməyə başlayır. Xüsusi qeyd olunmalıdır ki, bu sahə mürəkkəbdir və az öyrənilib. 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda Zərifə xanım Əliyevanın yaratdığı laboratoriyada az intensivli zəhərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik-funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatların aparılmasına nail olundu. Elmi tədqiqatların yekunu olaraq Zərifə xanım Əliyeva bir neçə monoqrafiya, o cümlədən, «Şin istehsalında gözün peşə patologiyası», «Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya», «Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası» adlı monoqrafiyalarını çap etdirməyə nail oldu. Bu qiymətli əsərlər dünyanın elmi ictimaiyyətinin diqqətini özünə cəlb edə bilmişdi. 1980-ci ildə Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun nəzdində məhz Zərifə xanım Əliyevanın təşəbbüsü ilə Lazer Mərkəzi yaradılmışdır ki, bu da onun elmi fəaliyyətinin praktiki işlə necə sıx şəkildə bağlılığına parlaq nümunədir. Zərifə xanım Əliyeva ölkənin tibb ehtiyaclarını diqqətlə öyrənirdi. O zamanlar Bakıda yod sənayesi sürətlə inkişaf edirdi. Buna görə də həmin sahədə çalışanların görmə orqanına yod istehsalı şəraitinin aşkarlanması üçün aparılan tədqiqatlar böyük əhəmiyyət daşıyırdı. Bakı Yod Zavodunun işçilərinin gözlərinin zədələnməsinin istehsal sahəsi ilə bağlı olduğunu təsdiq etmək və zədə mexanizminin müxtəlif cəhdlərini üzə çıxarmaq üçün Z.Ə.Əliyeva müxtəlif iş yerlərində, təbii şəraitdə heyvanlar üzərində tədqiqatlar aparırdı. Yenə də fədakar alimin iş günü kabinetdən yox, istehsalat sahələrindən başlanırdı. Bakı Yod Zavodunda istehsal prosesinin sanitar-gigiyenik xüsusiyyətlərinin, fəhlələrin iş şəraitinin, müxtəlif iş təcrübəsinə malik peşə sahiblərinin sağlamlığının ümumi vəziyyətini ciddi şəkildə araşdırmaq lazım gəlirdi. Tədqiqatçının diqqətini ilk növbədə yod istehsalı zamanı atmosferdə yod buxarının konsentrasiyasının istehsal əməliyyat mərhələsindən çox asılı olduğu cəlb edir. Uzun müddət ərzində ən müasir tədqiqat üsullarının köməyi ilə müxtəlif daxili istehsal bölmələrində çalışan işçilər üzərində dinamik müşahidələr aparır. Bu isə işçilərin görmə orqanına yod istehsalının toksik xüsusiyyətlərini üzə çıxarmağa imkan yaratdı. Yəni kirpik cismi nahiyəsində şişlərin əmələ gəlməsinə, göz qişalarının zədələnməsinə, onun həssaslığının azalmasına, qan damarlarının, şəffaf qatların dəyişikliyinə, bəzən də gözün ön və arxa hissəsinin zədələnməsinə gətirib çıxarır. Eksperimental tədqiqatlar nəticəsində müəyyən edildi ki, yod istehsalında kimyəvi maddələrin buxarının toksik təsirindən görmə orqanı daha çox zədələnir. Klinik-eksperimental tədqiqatların nəticələri görmə orqanına toksik maddələrin təsirini daha düzgün qiymətləndirməyə və rasional müalicə üsulları işləyib hazırlamağa imkan verdi. Odur ki, Z.Ə.Əliyevanın «Xroniki yod intoksikasiyasında oftalmologiya» mövzusunda yazdığı növbəti monoqrafiyası 1981-ci ildə işıq üzü gördü. Həmin monoqrafiya orijinal elmi-tədqiqat əsəri kimi mühüm əhəmiyyət daşıyır. 1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı tədqiqatlara görə Zərifə xanım Əliyeva ən yük-

sək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ.Averbax adına mükafatına layiq görüldü. Onu da xüsusi vurğulamaq lazımdır ki, Zərifə xanım Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

İstedadlı alimin elmi işləri aktuallığı və yüksək səviyyəsi ilə seçilirdi. Xüsusən, şin və yod istehsalı ilə məşğul olan işçilərin görmə orqanının vəziyyətinin öyrənilməsinə həsr olunan monoqrafiyaları bu cəhətdən diqqəti daha çox cəlb edir. Bu kitablarda iki iri zavodda aparılan konkret tədqiqatlar harmonik şəkildə görmə orqanının peşə patologiyasının öyrənilməsinə ümumi metodik yanaşma prinsiplərinin inkişafı ilə üst-üstə düşür. Z.Əliyevanın istifadə etdiyi ümumi iş prinsiplərinin qısaca şərhini belə səciyyələndirmək olar:

İstehsalatda zərərli amillərin təsiri bir qayda olaraq xroniki xarakter daşıyır və bir çox istehsalat sahələrində insan orqanizminə bir neçə zərərli amillər bir yox, kompleks halında təsir göstərir. Odur ki, həmin amillərin tam aşkara çıxarılması, hər birinin konsentrasiyası və intensivliyinin ətraflı öyrənilməsi, işçilərə bu amillərin mənfi təsirinin izah olunması çox böyük əhəmiyyət kəsb edir. Sənaye müəssisəsində aparılan hər bir tədqiqat, ilkin mərhələdə heyvanlar üzərində aparılan təcrübələr real iş şəraitinə uyğunlaşdırılaraq eksperimentdə öz təsdiqini tapmışdır. Bu məqsədlə təcrübə aparılan heyvanlar xüsusi kameralarda hər gün iş yerlərinin yaxınlığında yerləşdirilir və bu zaman onların görmə orqanının vəziyyətinin öyrənilməsi bütün orqanizmin tədqiq edilməsi ilə birlikdə aparılır. Bu göz xəstəlikləri simptomlarının başqa orqanların və sistemlərin zədələnməsi ilə nə kimi əlaqəli olduğunu üzə çıxarmağa imkan yaradır ki, bu da işçilər üzərində aparılan tədqiqat üsullarına uyğundur. Z.Ə.Əliyevanın apardığı tədqiqatların nəticələri göstərirdi ki, şin istehsalı sahəsində çalışan işçilərin müəyyən qrupunda toksik amillərin təsiri nəticəsində gözün qapaq hissəsinin zədələnməsinin xüsusi simptom kompleksi inkişaf edir. Patoloji sindromun tezliyi isə iş sahəsində zərərli amillərin konsentrasiyasından asılı idi. Eyni zamanda işçilərin bir hissəsində görmə orqanının funksional pozğunluğu, o cümlədən, görmə sahəsinin daralması müşahidə olunurdu.

Z.Ə.Əliyeva ilk dəfə yodla uzun müddət əlaqədə olan işçilərin görmə orqanının zədələnməsinin əlamətlərini aşkar edərkən bu əlamətlərin kirpik kənarı dairəyə, konyuktivlərə, gözün buynuz qişasına yodun necə təsir etdiyini müəyyənləşdirə bilmişdir. Bu zaman göz qapağına, görmə orqanının şəffaf qatına, habelə göz dibində yodun nə kimi fəsadlar törətməsi aşkarlanmışdır. Elmi tədqiqatlar göstərirdi ki, bu zaman görmə itiliyi zəifləyir, görmə sahəsi daralır, gözün işığa həssaslığı azalır, göz təzyiqinin artmasına meyllilik güclənir. Digər tərəfdən eksperimental tədqiqatlar sübut edirdi ki, görmə orqanındakı dəyişikliklər qan damarlarının və daxili orqanların, xüsusən də ciyərin və böyrəyin zədələnməsi ilə bağlıdır. Alim histoloji və histokimyəvi tədqiqatlar üzərində təcrübə apararkən heyvanların gözünün dərisində ciddi dəyişikliklər olduğunu meydana çıxarır. Z.Ə.Əliyevanın və onun rəhbərlik etdiyi kollektivin apardığı tədqiqatlar elmi cəhətdən əsaslandırılmış əməli tövsiyələ-



rin işlənib hazırlanmasına gətirib çıxardı ki, həmin tövsiyələrin istehsalata tətbiqi şin və yod müəssisələrində çalışan işçilərin gözünün zədələnməsinin kəskin şəkildə azalması ilə nəticələndi.

Bütün bu sadaladıqlarımız Z.Ə.Əliyevanın elmi fəaliyyətinin bir hissəsini təşkil edir. Peşə patologiyası sahəsində Zərifə Əziz qızı təkcə xəstəliyin ilkin əlamətlərini, klinik vəziyyətini müəyyənləşdirməklə kifayətlənməmiş, eyni zamanda mümkün olan intoksiyanın profilaktikasını əsaslandırıb həyata keçirmişdi. Görmə orqanının peşə xəstəliyi sahəsində elmi tədqiqatlarının nəzəri və təcrübi baxımdan nə qədər qiymətli olduğunu alimlərin çoxsaylı rəsmi rəyləri, habelə oftalmologiya sahəsində çalışan elmi işçilərin Zərifə xanımın tədqiqatlarına istinad etməsi bunu bir daha sübut edir. Çünki onun araşdırmaları həmişə özünəməxsusluğu və yeniliyi ilə böyük maraq doğururdu.

Bu baxımdan Z.Əliyevanın «İridodiaqnostika» və «İridodiaqnostikanın əsasları» (1980, 1981-ci illər) monoqrafiyaları nadir elmi tədqiqat əsəri kimi oxucuların diqqətini özünə cəlb etmişdi. Həmin mövzunun araşdırılmasına maraq diaqnostikanın bu üsulu bir çox somatik xəstəliklərin müəyyənləşdirilməsində istifadə olunurdu. Alimin gözün virus xəstəliklərinin öyrənilməsi sahəsində tədqiqatları da böyük əhəmiyyət kəsb edirdi. Bu baxımdan virus və peşə konyunktivitləri arasında differensial diaqnostikaya aid tövsiyələr işlənib hazırlanmış, gözün herpetik xəstəliyinin diaqnostikasına və müalicəsinə aid dərs vəsaiti nəşr edilmişdir.

Onu da xüsusi vurğulamaq lazımdır ki, Zərifə xanım Əliyevanın elmi maraqları yalnız görmə orqanının peşə patologiyasının problemləri ilə məhdudlaşmırdı. Onun görmə orqanının virusla zədələnməsinə həsr olunmuş silsilə işləri də elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanırdı. Həmin elmi işlərin tətbiqi bir sıra xəstəliklərin differensial diaqnostikasını təkmilləşdirmiş, onların müalicəvi əhəmiyyətini gücləndirmişdir. Həkim-oftalmoloqlar üçün nəzərdə tutulmuş dərs vəsaitləri, «Herpetik göz xəstəliyi», «Ağır virus konyunktivitləri» və s. bu silsilədəndir. O illərdə Zərifə xanım qlaukomanın etimologiyası, diaqnostikası və müalicəsi məsələlərinə həsr olunmuş bir sıra maraqlı əsərləri ilə fəaliyyətini genişləndirməyə müvəffəq olmuşdur. Gərgin araşdırmalar nəticəsində istedadlı alim bir sıra elmi məqalələr və «Gözün hidrodinamik sisteminin anatoma-fizioloji xarakteristikası» və «Yaşla bağlı gözün əsəb yollarının dəyişməsi» adlı əsərlərini oxucuların ixtiyarına vermişdir.

Zərifə xanım Əliyeva həm də gözün zədələnməsi profilaktikası və müalicəsi imkanlarını araşdırırdı. Bir sıra elmi əsərlərində o, görmə orqanı zədələndikdə mövcud olan cərrahiyyə əməliyyatları üsullarını müəyyənləşdirmiş və təkmilləşdirilməsi üçün bir sıra maraqlı təkliflər irəli sürmüşdür ki, bu da cərrahiyyə əməliyyatına məruz qalan zədələnmiş görmə orqanının müalicəsini xeyli asanlaşdırırdı. Alimin bir sıra elmi əsərləri də görmə orqanında bədxassəli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdur. Z.Əliyevanın dakriologiyadan bəhs edən - «Göz yaşı yollarının fiziologiyası», «Göz yaş axmalarının müasir cərrahiyyə üsulları ilə müali-

cəsi» monoqrafiyaları isə təkcə oftalmoloqlar üçün deyil, həm də fizioloqlar üçün maraqlı tədqiqat əsərlərinə çevrilmişdir.

Akademik Z.Ə.Əliyeva səhiyyədə təkcə görkəmli pedaqoq kimi şöhrətlənməmişdi. O, fundamental elmi araşdırmaların müəllifi kimi tibb elminə nəhəng töhfələr vermiş, görkəmli alim kimi də səhiyyə tarixində özünü təsdiqləmişdi. «Yaşla əlaqədar olaraq gözün və görmə-sinir yollarının dəyişiklivi» adlı monoqrafiyası bunun əyani sübutudur. Burada konkret şəraitdə görmə orqanının vəziyyətini öyrənən klinik istiqamətli elmi müddəaların bütöv bir silsiləsi öz əksini tapmışdır. Bu baxımdan Özbəkistanın «Medisina» nəşriyyatı tərəfindən çap edilmiş «Şəkərli diabet zamanı göz xəstəlikləri» adlı monoqrafiyası da görülən xeyirxah işin davamıdır. Bu təkrarsız əsərində Zərifə xanım sosial mənbə kimi Orta Asiya və Qafqaz regionunu götürərək insanlar arasında tez-tez rast gəlinən və kifayət qədər geniş yayılmış şəkərli diabet zamanı yaranmış göz xəstəliklərinin patoloji, klinik, diaqnostik və müalicəvi xüsusiyyətlərini araşdırırdı. Elmi istiqamətinə görə bu nəşr nadir əsər kimi bu gün də oftalmoloqların stolüstü kitabına çevrilib.

Z.Ə.Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi «Oftalmologiyanın aktual problemləri» monoqrafiyasında (professor N.B.Şulpina və L.K.Moşetova ilə birlikdə) özünü büruzə verir. Bu kitab həm oftalmoloqlar, həm də Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya fakültəsinin dinləyiciləri üçün böyük əhəmiyyət daşıyırdı.

«Oftalmologiyanın aktual problemləri» monoqrafiyasında, həm də görmə orqanının müxtəlif patologiyası zəminində gözün müasir üsullarla tədqiqi və müalicəsi öz əksini tapmışdır. O, eyni zamanda oftalmoloji cərrahiyyə əməliyyatlarındakı, gözün virus xəstəliyinin və görmə orqanının damar patologiyasının müalicəsindəki elmi yeniliklərlə və eləcə də həkim etikası tibbi deontologiya məsələləri ilə də ciddi maraqlanırdı. Zərifə xanımın gənc həkimlərin tərbiyəsində, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsi və həlli yolunda da əvəzsiz xidmətləri olmuşdur. Onun bu məsələlərə həsr olunmuş çoxsaylı məqalələri, məruzələri, «Yüksək etimad» adlı kitabı da cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə böyük təkan vermişdir. Həyatda Zərifə xanım kimi sosial həssaslığa və qayğıkeşliyə malik olmaq lazım idi ki, öz istedadını, bilik və bacarığını olduqca çətin, mürəkkəb sahələrin xidmətinə yönəldəsən.

Zərifə xanım peşə patologiyası sahəsində görkəmli oftalmoloq, geniş profilli mütəxəssis həkim olmaqla yanaşı, həm də gözəl pedaqoq idi. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz Xəstəlikləri kafedrasında oxuduğu mühazirələr bunu bir daha sübut edir. Zərifə xanım elmdə həm də bir məktəb yaratmışdı. Bu, onun əməkdaşlara göstərdiyi səmimi münasibətdə, ümumiyyətlə, insanlara olan sevgisində də öz əksini tapmışdı.

İstər Oftalmoloqlar Cəmiyyətinin qurultaylarında, plenumlarında, Moskva Oftalmoloqlar Cəmiyyətinin plenar iclaslarında etdiyi məruzələr, istərsə də publisistik çıxışlarında Zərifə xanım Əliyeva özünü mahir natiq kimi göstərirdi. Müxtəlif səviyyəli auditoriyalarda belə, onun deontologiya məsələlərinə həsr olunmuş məruzələri böyük maraqla dinlənilirdi, məruzəçinin fəlsəfəyə, səhiyyəyə aid ədəbiyyatı dərindən mənimsədiyi duyulurdu. Zərifə xanımın daxili aləmi, vəzifə borcuna, xəstələrə və ətrafdakılara münasibəti 1983-cü ildə nəşr etdiyi «Həkimin əxlaqi tərbiyəsi, deontologiya, səhiyyə etikası və əxlaq məsələləri» əsərində özünün daha parlaq təcəssümünü tapmışdır. Bu mövzuya həsr olunan çıxışlarında Zərifə xanım bilik və təcrübəsini həkim həmkarlarına inam hissi ilə aşılayırdı. Ona görə də çap etdirdiyi elmi əsərlər mahiyyət etibarı ilə daha geniş əhəmiyyət kəsb edir, təkcə səhiyyə sahəsində deyil, məişət və ailə əlaqələri də daxil olmaqla, bütövlükdə insanların qarşılıqlı münasibətlərinin öyrənilməsində mühüm rol oynayırdı.

Məlum olduğu kimi, tibb işçilərinin vəzifə borcunu yerinə yetirməsi təkcə xəstəliyin müalicəsi və profilaktikasından ibarət deyil, həm də peşə fəaliyyəti ilə əlaqədardır. Zərifə xanım tibb işçisinin ətrafdakıların tərbiyəsində mühüm rol oynadığını, şəxsiyyət, əxlaq etalonu olduğunu xüsusi vurğulayırdı. Haqlı olaraq belə hesab edirdi ki, həkimin həyati mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: «Yalnız o şəxs həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət həm insan qarşısında, həm cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir».

Zərifə xanım insanlara bütün varlığı ilə bağlı idi. Onların xeyirxahlığına, qayğıkeşliyinə, daxili aləminə yüksək qiymət verirdi. Həmkarlarının, iş yoldaşlarının ona yaxınlaşması üçün həmişə şərait yaradırdı. Xəstənin qəlbinə yol tapmaq, onun etimadını qazanmaq hər insana nəsib olmur. Zərifə xanım bunu məharətlə bacarırdı, xəstələrin hansı biri ilə bu və ya digər bir xəstəliyin profilaktikasına, müalicəsinə dair söhbət açırdısa, digər xəstələr də onun ətrafına toplaşar, söhbətlərini maraqla dinləyirdilər. Zərifə xanım bu adamların çəkdikləri iztirabları duyur, narahatlıqlarını qovmağa, ürəklərində sağalacaqlarına ümid işığı oyatmağı bacarırdı.

Zərifə xanım daim tələsirdi. Elə bil ki, Ulu Tanrının ona ömür payı ayıranda xəsislik etdiyini başa düşür və daha çox iş görmək üçün yollar arayıb axtarırdı. İstər elm sahəsində, istərsə də təcrübi təbabətdə uca zirvələr fəth etsə də, yeni yollar axtarırdı. Zərifə xanım gözəl pedaqoq-tərbiyəçi kimi öz bilik və təcrübəsini insanlara qəlbinin hərarəti ilə paylayırdı.

Sadəliyi, ünsiyyəti, dərin səmimiyyəti ilə hamını heyran qoyardı. İnsansevərlik, bəşərilik sanki bu insanın qanına hopmuşdu. Çox zamanlar insanlar onun yanına xahişə gəlirdilər. Zərifə xanım hamını səbrlə, təmkinlə dinləyər, əgər kömək etmək mümkündürsə, heç kəsi ümidsiz qaytarmazdı - onun sadəliyi onun böyüklüyü idi.

Yüksək mədəniyyəti, ünsiyyətdə səmimiliyi, istiqanlılığı, qayğıkeşliyi, ehtiyacı olanın köməyinə çatmaq bacarığı Zərifə xanımın həyatının insanlara humanist xidmət nümunəsi kimi diqqəti cəlb edirdi. Hədsiz dərəcədə xeyirxah bir insan

olan Zərifə xanım yaşamaqdan, işləməkdən xüsusi zövq alır, həyata və insanlara qarşı nikbin, xeyirxah və etimad ab-havası yaratmaq üçün çox çalışırdı. Bu parlaq şəxsiyyət nurlu səmimiyyətə, xeyrin təntənəsinə, xalqın xoşbəxtliyi üçün əlindən gələni edirdi. Bu onun həyatının əsas meyarı, qırılmaz vəhdəti idi.

Zərifə xanım alimlik istedadı ilə, qeyri-adi təşkilatçılıq qabiliyyətini üzvi surətdə əlaqələndirirdi. Onun hərəkətləri həmişə dəqiq və düşünülmüş olardı. Buna görə də, cəmiyyətdə o, son dərəcə dəqiq və məsuliyyətli bir insan kimi tanınmışdı. Bu xarakteri dəyişməz olaraq qalırdı. Heç zaman, heç bir yerdə şəxsiyyətini dilinə gətirməzdi, bir qayda olaraq hərtərəfli, əsaslandırılmış mövqe tuturdu. Zərifə xanım hamıya eyni dərəcə diqqət və qayğı göstərirdi. Zərifə xanım bir elmi rəhbər kimi əməkdaşların qarşısında konkret yerinə yetirilə bilən, təcrübi əhəmiyyət daşıyan və perspektivli vəzifələr qoymaq bacarığı ilə fərqlənirdi.

Akademik Zərifə xanım Əliyeva gərgin elmi işlərlə yanaşı böyük ictimai işlər də aparırdı. O, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, «Bilik» Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş ittifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. Zərifə xanım həm də «Oftalmologiya xəbərləri» jurnalının redaksiya heyətinin üzvü idi. Görkəmli oftalmoloq alim ölkəmizin bir sıra orden və medalları ilə təltif edilmiş, Azərbaycanın əməkdar elm xadimi fəxri adına layiq görülmüşdü.

On beş monoqrafiyanın, iki yüzdən artıq məqalənin, məruzə və metodik vəsaitin müəllifi olan Zərifə xanım Əliyevanın elmi irsi bu gün də aktuallığını itirməyib, günün müasir tələblərinə cavab verir.

Zərifə xanım Əliyeva milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdü. Arzularından biri də Azərbaycanda yeni oftalmoloji kompleksin tikilməsi idi.

Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən tikintisi başa çatdırılmış bu kompleks öz qapılarını digər səhiyyə ocaqları kimi xalqımızın üzünə açıb. Bu şəfa ocağında dünyanın ən gözəl neməti olan gözlərinin nurunun itirilməsi təhlükəsindən xilas olacaq insanlar bu nəhəng kompleksin təşəbbüsçüsü olmuş gözəl həkim, xeyirxah insan Zərifə xanımı böyük hörmət və məhəbbətlə yad edirlər. Lakin dünya tibb aləmində xidmətlərinə görə ən ali Averbax mükafatına layiq görülmüş Zərifə xanım Əliyevanın ən uca mükafatı xalqın böyük məhəbbətidir. Nəsillər bir-birini əvəz etsə də, bu nəcib insan, görkəmli alim, ictimai xadim Zərifə xanım Əliyevanın adı bitib-tükənməyən hörmət və sevgi ilə xatırlanacaqdır.



# АКАДЕМИК ЗАРИФА ХАНУМ АЛИЕВА

Свет и тьма. Две противоположные ипостаси. Покидая мрак материнского чрева, человек начинает свое бесконечное стремление к свету. Но дороги света и тьмы отмеряны не для всех поровну. Для кого-то они сверкают разноцветными огнями, а кто-то с тоскою стремится к свету сквозь окружающую его тьму. И есть тот, кто становится источником света для этих людей.

Славная дочь нашего народа, академик Зарифа ханум Алиева стала источником света для сотен тысяч таких людей, она была человеком, освобождающим людей из оков тьмы, возвращая им утерянную способность видеть. Она была человеком, судьбе которого можно позавидовать, - не только видным ученым, но и дочерью известного ученого, общественно-политического деятеля Азиза Алиева, супругой выдающегося государственного и общественно-политического деятеля Гейдара Алиева.

Сейчас Зарифы ханум нет рядом с нами, но светлая память о ней и ее благородных деяниях будет вечно жить в сердцах друзей, коллег и родных. Неписанные законы закрытого общества, в котором мы жили долгие годы, не позволяли говорить о заслугах Зарифы ханум Алиевой в развитии азербайджанской медицины и о вкладе, который она внесла в мировую науку. В те годы Зарифа ханум была известна лишь как супруга руководителя страны, и в те годы не было принято говорить о ее заслугах в развитии офтальмологической медицины и о том вкладе, какую она как видный ученый внесла в мировую медицинскую науку.

В книге «Академик Зарифа ханум Алиева» мы постарались представить вам эту необыкновенную по своим человеческим и профессиональным качествам достойную представительницу своего народа, женщину, увенчанную множеством званий, но при этом оставшейся теплой, любимой и нужной, женщиной с присущими ей очарованием и лучезарным оптимизмом. И мы верим, что эта книга для многих будет служить уроком жизни и

духовности, школой мудрости. Да возрадуется обретшая бессмертие душа академика Зарифы ханум Алиевой.

Выдающийся ученый Зарифа ханум Алиева родилась в один из весенних дней, 28 апреля 1923 года, в селе Шахтахты Шарурского района Нахчыванской Автономной Республики. Окончив в 1942 году школу, она по зову сердца поступила на лечебно-профилактический факультет Азербайджанского Государственного Медицинского Института, который окончила с отличием в 1947 году. В тот же год Зарифа ханум проходит двухгодичные курсы специализации в Московском Институте Усовершенствования Врачей. Интерес успешно окончившей курсы специализации Зарифы ханум к научным исследованиям приводит её в Азербайджанский Научно-Исследовательский Институт Офтальмологии в качестве врача-ординатора.

В дальнейшем, завершив учебу в аспирантуре, Зарифа ханум Алиева, будучи научным сотрудником, наряду с практической врачебной деятельностью продолжает свои научные изыскания. Именно в те годы в Азербайджане была широко распространена такая инфекционная болезнь глаз, как трахома, которая приводила к тяжелым последствиям, и даже к полной потере зрения. По данным Международной Медицинской ассоциации, на тот период 400.000.000 человек от этой болезни страдали, а 80.000.000 человек абсолютно, лишились зрения. Эта проблема волновала не только отечественных, но и зарубежных врачей. Эффективных методов лечения этой инфекции не было разработано и борьба с этим заболеванием приобрела важное значение не только для офтальмологии, но и для здравоохранения республики в целом. Зарифа ханум принимала активное участие в организации и проведении лечебных и профилактических мероприятий по борьбе с трахомой. Наряду с конкретной лечебной практикой, - она не ограничивалась деятельностью в институте, но выезжала в те районы Азербайджана, где уровень заболеваемости трахомой был особенно высоким, выясняла причины возникновения болезни и проводила комплексные меры в очагах болезни.

Однако этого было недостаточно для борьбы с этим недугом. Для этого требовалось проведение фундаментальных исследований в области глазных болезней, в том числе профессиональных заболеваний глаз, приобретших региональное значение, и разработка эффективных методов борьбы с ними. Изучая и разрабатывая эту проблему, Зарифа ханум много времени проводила непосредственно на промышленных предприятиях, проводя офтальмологическое обследование глаз у сотен лиц, работающих в условиях воздействия различных производственных вредностей. Таким образом, тема ее первых научных изысканий была продиктована самой жизнью. Свою исследовательскую работу Зарифа ханум посвятила изучению возможностей эффективного использования при лечении трахомы и ее осложнений нового в то время антибиотика - синтомицина, обладающего не только широким спектром антибактериальной, но и антихломидийной активности. Успешные результаты исследований легли в основу кандидатской диссертации З.Алиевой «Лечение трахомы синтомицином в комбинации с другими методами терапии», которую она успешно защитила в 1960 году. Это стало возможным только благодаря внутреннему упорству и целенаправленной самоотверженной деятельности. Она всегда верила, что может подарить свет незрячим, вернуть им веру в жизнь.



Завершив целый цикл работ по изучению и лечению трахомы, Зарифа ханум занялась исследованиями в других важных направлениях офтальмологии, провела ряд исследований, посвященных изучению глаукомы. Эти исследования способствовали расширению практических знаний врачей в области клинических глазных болезней.

В период работы на кафедре глазных болезней Азербайджанского Государственного Медицинского Института Усовершенствования Врачей им. А.М.Алиева, Зарифа ханум продолжает заниматься врачебной деятельностью, - она много оперирует, консультирует больных, причем ее практика не ограничивается только своей клиникой, но охватывает все офтальмологические учреждения и отделения. Это дополняется большой педагогической работой с врачами - слушателями курсов усовершенствования глазных болезней.

В 1968 году Зарифа ханум продолжила свою целенаправленную работу в сфере производственной патологии органа зрения. В то время особое внимание она уделяла проблеме пагубного влияния вредных факторов на орган зрения у людей, работающих на предприятиях йодовой и нефтехимической промышленности. Работая над данной проблемой, Зарифа ханум также выезжает на производственные предприятия, и на месте проводит офтальмологическое обследование трудящихся.

Наряду с этим ею были поставлены сотни опытов в лабораторных условиях йодового и шинного заводов и ряда других промышленных предприятий городов Баку и Сумгайыта. Благодаря этому ей удалось выяснить важнейшие закономерности воздействия вредных веществ на орган зрения.

Многолетние наблюдения, итоги клинических исследований, экспериментов легли в основу докторской диссертации Зарифы ханум Алиевой. Диссертационная работа «Состояние органа зрения у работников некоторых предприятий химической промышленности Азербайджана» была за-

щищена в одном из авторитетных офтальмологических центров мира - Московском Научно-Исследовательском Институте Глазных Болезней имени Г.Гельмгольца. Диссертация получила высокую оценку и признание ученых-офтальмологов, как одно из первых научных исследований в области профессиональной офтальмологии. В 1977 году талантливому ученому Зарифе ханум Алиевой была присуждена ученая степень доктора медицинских наук. После защиты докторской, Зарифа ханум трудится в качестве профессора на кафедре офтальмологии Азербайджанского Государственного Медицинского Института Усовершенствования Врачей имени А.М.Алиева, а через несколько лет она была избрана заведующей той же кафедры. Зарифа ханум, в соответствии со своими принципами, собрав рядом талантливую и способную молодежь, продолжает научно-исследовательскую работу, а также подготовку медицинских кадров и научных сотрудников. Но существующей базы кафедры оказалось недостаточно для проведения научных исследований.

Для решения этой проблемы Зарифа ханум выдвинула ряд конкретных предложений, и в 1977 г. по ее инициативе в Баку состоялся первый пленум правления Всесоюзного общества офтальмологов, который прошел на высоком уровне и предемонстрировал прекрасные качества и организаторские способности ученого. Успешное проведение этого пленума сыграло большую роль в развитии офтальмологической службы и подготовке научных и научно-педагогических кадров как в Азербайджане, так и в лучших академических учреждениях бывшего Союза.

Как было отмечено выше, талантливому ученому, высокому профессионалу и организатору Зарифе ханум Алиевой удалось создать специальные научно-исследовательские лаборатории с целью выявления причин, приводящих к производственной патологии глаз на Бакинском заводе кондиционеров и в институте физиологии имени А.И.Гараева Академии наук Азербайджана. Естественно, было очень трудно охватить все отрасли производства и выявить первичные требования по охране зрения в каждой из них. В таких случаях очень важно знать, с чего начать. Зарифы ханум удалось и это. Прежде всего она начинает изучать проблемы органа зрения у лиц, работающих на химическом производстве. Нужно особо отметить, что эта отрасль сложная и малоизученная. В 1979 году в лаборатории, созданной Зарифой ханум при институте физиологии имени А.И.Гараева Академии наук Азербайджана, был проведен ряд глубоких исследований по изучению физиологических, клинических, функциональных, гистологических механизмов воздействия производственных вредных факторов малой интенсивности на орган зрения людей, работающих на предприятиях с



повышенным уровнем вредности. Результатом этих исследований стали вышедшие из-под пера Зарифы ханум несколько монографий, в том числе, «Производственная патология глаз в шинном производстве», «Профилактика профессиональных заболеваний глаз в йодовой промышленности», «Офтальмология при хронической йодовой интоксикации». Эти бесценные научные труды привлекли к себе внимание мирового научного общества.

В 1980 году при Азербайджанском Научно-Исследовательском Институте Глазных Болезней под руководством Зарифы ханум был создан Лазерный центр, что стало ярким подтверждением того, насколько тесно ее научная деятельность была связана с практической. Зарифа ханум очень внимательно изучала медицинские нужды своей страны. В то время в Баку широко развивалась йодовая промышленность. Поэтому исследования воздействия йода на зрение трудящихся на йодовом производстве играли очень большую роль. Для подтверждения взаимосвязи повреждения глаз у работников йодовой промышленности с производством, и выявления различных сторон травмирующего механизма, Зарифа ханум проводит опыты на животных в естественных условиях на различных предприятиях. Рабочий день самоотверженного ученого начинался не в стенах института, а на производствах. Нужно было срочно выяснить состояние санитарно-гигиенических норм производственного процесса на йодовом заводе, условия труда рабочих и общее состояние здоровья трудящихся различных специальностей. Внимание исследователя, в первую очередь, привлекала проблема высокой зависимости концентрации паров йода процесса от производственно-операционного этапа. В течении продолжительного времени при помощи современных методов исследования были проведены динамичные обследования работников внутри производства. Это в свою очередь, дало возможность выявить вредное воздействие йодового производства на орган зрения трудящихся. То есть, на образование опухолей в ресничной части, повреждение роговицы глаза, снижение ее чувствительности, что приводило к изменениям в сосудах и прозрачной среде глаза, а иногда и к повреждению передней и задней камер глаза.

По итогам экспериментальных исследований выяснилось, что орган зрения работников больше всего повреждается от токсического эффекта химических испарений при производстве йода. Результаты клинико-экспериментальных исследований позволили намного лучше оценить действие токсичных веществ на глаз и разработать более рациональные методы лечения. Поэтому в 1981 году и увидела свет ее новая монография «Офтальмология при хронической йодовой интоксикации». Эта монография имеет огромное значение как оригинальный научно-исследовательский труд.

Əziz Əliyev bütün övladları kimi Zərifə xanımın gələcəyini də parlaq görür, onların Azərbaycana böyük töhfələr verəcəklərinə əmin idi. Zərifə xanım yaşadığı dövrün, quruluşun siyasi mənzərəsini tam aydın görürdü. Çünki atası - ictimai-siyasi xadim, tanınmış dövlət xadimi Əziz Əliyev mövcud ictimai quruluşun siyasi burulğanından keçmiş və onun müxtəlif məqamlarını vaxtlı-vaxtında layiqincə qiymətləndirən, təhlil və sintez edən bir insan idi. Onun ictimai-siyasi fəaliyyəti çox da rəvan olmamışdı. Rejimin, «parçala, hökm sür» siyasəti şübhəsiz ki, Əziz Əliyevdən yan keçə bilmədi. Ona görə ki, Əziz Əliyev öz xalqını sevən, işini bilən ləyaqətli, istedadlı, işgüzar bir insan idi. Bir tərəfdən Azərbaycana rəhbərlik edən Mircəfər Bağırov münasibəti, digər tərəfdən də gizli xidmət orqanlarının əli Əziz Əliyevdən uzaqda deyildi, hər an onu izləyib, məhv etməyə çalışırdı. Bu məkrli siyasətdən baş çıxarmaq üçün yüksək ağıl, dərin bilik və dözümlü iradə lazım idi. Əziz Əliyevin mütəşəkkil, aydın, sülhsevərliyi, xalqına böyük məhəbbət hissi, güclü siyasəti və bir də Böyük Tanrı onu fiziki mənada məhv olmaqdan qorudu.

Ümummilli Lider Heydər Əliyev Əziz Əliyevin 100 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edərkən Əziz Əliyevin nə kimi haqsızlıqlara düçar olması və möcüzə nəticəsində 1938-ci il repressiyalarından xilas olduğunu xüsusi vurğulamışdır: «Deməliyəm ki, mən özüm də bu repressiyadan əziyyət çəkmişəm. ...mərhum həyat yoldaşım Zərifə xanımla 1948-ci ildə tanış olmuşdum. Az sonra mən oxumağa getdim. 50-ci ildə oradan Bakıya qayıdandan sonra, şübhəsiz ki, öz ailə həyatımı qurmaq, evlənmək fikrində idim... Lakin o vaxt mənə Əziz Əliyevin ailəsi ilə ünsiyyətdə olmaq qadağan edilmişdi. 1951-ci ildə Əziz Əliyev işdən çıxarıldıqda Zərifə xanımla biz görüşdük və o, mənə dedi: *«Deyəsən biz bir daha görüşə bilməyəcəyik, çünki atamı işdən çıxarıblar və ona qarşı siyasi ittiham irəli sürüblər. Sən isə dövlət təhlükəsizliyi orqanlarında çalışırsan. Odur ki, deyəsən, bizə birlikdə olmaq qismət deyilmiş. Mən əlbəttə etirazımı bildirdim və münasibətlərimiz davam etdi»*. Heydər Əliyev qeyd edirdi ki, 1953-cü ilin əvvəllərində hər şey ona doğru gedirdi ki, Əziz Əliyevi həbs etməli, onun ailəsini isə Mircəfər Bağırovun göstərişi ilə sürgün etməli idilər: *«Amma Allah kömək etdi. 1953-cü ilin martında Stalin öldü, həmin ilin yayında isə Mircəfər Bağırovu əvvəlcə işdən çıxardılar və sonra da həbs etdilər... Bundan sonra necə deyərlər, mən azadlığa çıxdım və 1954-cü ilin noyabrında öz ailə həyatımı qura bildim...»* Heydər Əliyev Əziz Əliyevi sadə, məhrəm və ağıllı həmsöhbət kimi xatırlayırdı: *«Əziz Əliyev olduqca gözəl insan idi. Bir insan kimi, bir ata kimi olduqca gözəl bir adam idi... Azərbaycanda və Dağıstanda işlədiyi illərdə elm xadimləri ilə sıx təmasda olurdu... Yüksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz ziyalı mühiti ilə təmasda olmağa çalışırdı. O, hər cəhətdən gözəl insan idi»*. Göründüyü kimi Zərifə xanım Əliyeva həyatda bütün ağrı-acıları dadmış, yaşamış bir insandır. Ailə qurduqdan sonra isə ikinci çətin bir həyat başlayır. Bu həyatın şirini qədər acılığı da yox deyildi. Çünki onun ailə qurduğu insan, qeyri-adi istedada malik, Ulu Tanrının xüsusi nəzəri-diqqətində olanlardan idi. Heydər Əliyev böyük SSRİ-nin rəhbərlərindən biri kimi çəkişmələrin, ziddiyyətlərin tam mərkəzində dayanmaqla, hadisələri xalqların milli azadlıq, elm, mədəniyyət və sürətli inkişaf aspektlərinə yönəltməyə çalışırdı.



Heç şübhəsiz ki, bu mövqe hakimiyyət hərisləri tərəfindən müsbət qarşılanmırdı. Moskvada, istərsə də bədxah qonşularımızda onu gözü götürməyənlər çox idi. Şübhəsiz ki, möhtəşəm Heydər Əliyev siyasəti, ağlı və düşüncəsi, zəngin biliyi bütün maneələri dəf edir, bütün dünya xalqlarının azadlığına doğru can atırdı. Heydər Əliyevə dəyən zərbəni ilk növbədə onun həyat yoldaşı, ömür-gün sirdaşı Zərifə xanım Əliyeva duyurdu. Heydər Əliyevin böyük siyasətinin içində şübhəsiz ki, Zərifə xanım Əliyeva çaları var idi. Onların taleyi, elmi-ictimai, siyasi fəaliyyətləri zaman-zaman bir-birinə təsir etmiş, inkişafa doğru yönəlmiş, sonda isə bir-birini tamamlamışdır. Hər iki fəaliyyət sahibi bir-birindən güc alaraq fiziki və mənəvi məkanlarını genişləndirmişdir. Əgər Heydər Əliyev evə gərgin gəlmişsə, onu evdə Zərifə xanım öz mehriban təbəssümü ilə qarşılamış, hər şey də bununla həll olunurdu. Digər tərəfdən Heydər Əliyevin müdrik tövsiyələri Zərifə xanım Əliyevanın hər hansı bir elmi kəşfinin, araşdırmasının araya-ərsəyə gəlməsinə təkan vermişdir.

Şübhəsiz ki, Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin Siyasi Bürosunda Heydər Əliyevə qarşı baş qaldıran amansız çəkişmələri də ilk olaraq Zərifə xanım hiss edirdi. Zərifə xanım bu ağrı-acıları atası Əziz Əliyevin siyasi fəaliyyəti dövründə dadsa da, onun tam mahiyyətini yalnız Heydər Əliyev Moskvada işlədiyi zaman başa düşdü. Bütün bu ziddiyyətlər Zərifə xanımın səhhətinə də öz təsirini göstərirdi. Zərifə xanım onu başa düşür, belə anlarda həyat yoldaşına mənəvi dayaq olurdu. Sonralar H.Əliyev öz söhbətlərində ailəsi barədə dönə-dönə vurğulayırdı:

> *«Ailəmi, uşaqlarımı çox sevirəm. Ailəm, uşaqlarım mənə həmişə ilham, ruh veriblər, mənə dayaq olublar, həyatımı çiçəkləndiriblər, məni daim sevindiriblər. Xoşbəxtəm ki, ailəm məni heç vaxt incitməyib, uşaqlarım mənə heç vaxt narahatlıqlar gətirməyiblər. Əksinə, həmişə mənə sevinc, xoşbəxtlik gətiriblər»*.

Müdrik şəxsiyyət Əziz Əliyev öz övladlarına sözün əsl mənasında insana hörmət, sevgi və məhəbbət hissi aşılamağı bacarmışdı. Çünki insanlara münasibətdə xeyirxah və diqqətli olmaq Əziz Əliyevin övladlarına verdiyi dərsin əsl məzmunu idi. Ailənin hər bir üzvünün yolu mənalı ucalıq rəmzidir. İstedadlı pianoçu «Dan ulduzu» ansamblının bədii rəhbəri, respublikanın əməkdar incəsənət xadimi, dünyasını vaxtsız dəyişmiş Gülarə Əliyeva kövrək, həzin ifaları ilə hələ də tamaşaçıların xatirindədir. Görkəmli alim, gözəl insan, tibb elmləri doktoru, professor Tamerlan Əliyev fəaliyyəti dövründə neçə-neçə insanları ölümün pəncəsindən almış, ailələrə sevinc və xoşbəxtlik bəxş etmişdir. Onun vəfatından uzun illər keçsə də o, əsl böyüklük zirvəsinə qalxmışdır. O, Azərbaycan ziyalısıdır. Məşhur onkoloq, akademik Cəmil Əliyev hazırda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin rəisi və Milli Onkoloji Elmi Mərkəzə rəhbərlik edir. O, kliniki onkologiya sahəsində təcrübəli mütəxəssis olmaqla yanaşı öz elmi araşdırmaları ilə Azərbaycanda və xarici ölkələrdə tanınır. Respublikada tibb elmi və səhiyyənin inkişafında xidmətləri olmaqla bərabər, həm də bacarıqlı təşkilatçıdır.

Onun rəhbərliyi altında ölkəmizdə və MDB məkanının onkoloji mərkəzlərində nəzəri əhəmiyyət daşıyan geniş elmi-tədqiqat işləri aparılır. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü və Rusiyanın Tibb Elmləri Akademiyasının akademiki Cəmil Əliyev bədxassəli şişlərin diaqnostikası və müalicəsi işində mühüm uğurlar əldə etmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkoloji Elmi Mərkəzinin direktoru, akademik, Zərifə xanım Əliyevanın qardaşı Cəmil Əliyevin xatirələrindən:

> *«Onun kimi bu qədər ünsiyyətcil, xeyirxah, xoşxasiyyət insan, qayğıkeş bacı, mərhəmətli və nəvazişli ana, sədaqətli və vəfalı ömür-gün yoldaşı, fədakar, vətənpərvər, dəyərli və ləyaqətli türk qadını tanımıram... Bütün Azərbaycan qızlarını və öz övladlarımı da onun əzəli saflığı və nurluğunda görməyi arzu edərdim...*
>
> *Bu yaxınlarda bacım haqqında yazmaq arzusunda olan «Aydınlıq» qəzetinin müxbiri Dərviş Cavanşirə bildirdim ki: «Çox arzu edərdim ki, gəlinim ona oxşayaydı. «Can» kəlməsi onun dilindən əskik olmazdı». O, mənə bacıdan artıq, ana nəvazişi ilə yanaşardı... Onun hansı insani keyfiyyətlərindən söhbət açım? Nəciblik, alicənablıqla dəyərləndirilən mərhəmətlik, xeyirxahlıqlarını saymaqla qurtarmaz. Bacım əfsanəvi həkim-loğman kimi xilasedici vasitələri axtarıb taparaq xalqının qayğısını çəkirdi...*
>
> *Appendisitdən fəsadlarla nəticələnən çox ağır əməliyyat olundum. Bacım Zərifə və Heydər Əliyev məni yenidən həyata qaytardılar. O günlərdə bacım həmişə mənim yanımda olur, usanmaq bilmədən məni ruhlandırır, qayğımı çəkirdi. Onun mərhəməti sayəsində ölümün pəncəsindən qurtuldum.*
>
> *Bütün ailə üzvlərinə: Sevilə, İlhama, nəvələri Leylaya, Azərə, əzizlərinə xüsusi diqqət göstərirdi. Onun xəstəliyinin ağır günləri gözümün önündən kinolent kimi keçib gedir. Hamını sakitləşdirirdi: «Narahat olmayın, mən özümü çox yaxşı hiss edirəm. İlham, sən də, Sevil, sən də, Mahmud, sən də gedib öz işlərinizlə məşğul olun. Mənə görə narahat olmayın...» Xəstəyə baş çəkməyə gələn yaxınlarını səhhətinin yaxşı olduğuna inandırmağa çalışar, yataqdan durub oturardı. Mən o anların çətinliyini bir həkim kimi çox gözəl başa düşürdüm. Heç vaxt bacımın sakit, amma əvvəlki təravətini itirməyən nəvazişli səsilə söylədiyi sonuncu sözləri yaddaşımdan silinməyəcək...*
>
> *Bacım Zərifə gündən-günə sükut içində olan ulduz kimi, şam kimi əriyirdi. O, baharda dünyaya gəlmiş və ad gününə on üç gün qalmış hədsiz dərəcədə sevdiyi əzizləri ilə ayrılaraq əbədi olaraq gözlərini yumdu.*
>
> *Biz artıq onun son günlərini, saatlarını yaşadığını hiss edirdik. Baharda dünyaya gəlmiş bacım onun sevimli güllərinin əhatəsində idi... Mənə elə gəlir ki, sanki o özü bahar güllərinin əlvan çələngindən - al qızılgüllərin, əsrarəngiz nərgizlərin əhatəsindən bu dünyaya qədəm qoymuşdu. Və bir bahar günündə - 1985-ci ilin 15 aprelində mənim bacım doğma Azərbaycan güllərinin əhatəsində Moskva qəbristanlığında əbədi olaraq həmin güllər dünyasına qayıtdı...»*



Zərifə xanım Əliyevada elə bil ailənin bütün müsbət cəhətləri toplaşmışdı. O, bütün varlığı ilə xalqının təəssübünü çəkir, bütün insanlara böyük qayğı və diqqət göstərirdi. Bu, bir tərəfdən hər bir qadına xas olan analıq yanğısından irəli gəlirdisə, digər tərəfdən də başqalarının ağrı-acısına bəzən özününkündən də çox yanmaq istəyindən doğurdu. Başa düşürdü ki, hər hansı bir ünsiyyətdən məhrum olan tənha və köməksiz insan qeyri-müəyyən şəraitində acınacaqlı ömür sürməyə məhkumdur. Bəlkə də onun insanlara xeyirxah münasibətinin köklərini bu zəmində axtarmaq lazımdır. O, ömrü boyu etika problemləri ilə ciddi məşğul olmuş, insanların şəxsiyyətini, mənliyini uca tutmağı bacarmışdı. Zərifə xanım heç zaman qadınların üstün imtiyazlara nail olması uğrunda mübarizə aparmamışdır. Əksinə, özündə elə bir güc tapmışdı ki, «güclü məxluq» hesab etdiklərimizə özünün nəinki bərabər olduğunu, hətta bəzən onlardan üstünlüyünü də sübut edə bilsin. Onun məhz bu mövqeyi qadının müasir cəmiyyətdə yerinin, onun sosial və ictimai statusunun müəyyənləşməsinə misilsiz xidmət göstərmiş və mənəvi dünyamıza qadın ürəyinin mürəkkəb və psixoloji zənginliyini gətirmişdir.

Zərifə xanım Əliyeva elmi problemlərə dair çoxlu kitablar yazmışdır. Lakin onun ən dəyərli əsəri qadın ürəyi, insan qəlbi haqqında qələmə almadığı, lakin bütün həyatı boyu yaratdığı kitabı olmuşdur. Kimsə ömründə heç olmasa bircə dəfə bu canlı kitabın bir səhifəsini oxuyubsa, artıq onu sevməyə bilməz. Çünki həmin anda insan tənhalığını unudur, milyon-milyon insanın inamının, ağrı-acılarının bir olduğunu dərk edir, ömrünün sonunadək özünə, ideallarına sadiq qalır. Bu da şübhəsiz ki, Zərifə xanımın mənəvi ucalığından irəli gəlirdi.

Bu sətirlər Fatma xanım Abdullazadənin Zərifə xanım Əliyeva haqqında məqaləsindəndir.

O, gənclik illərində Zərifə xanımın elmə, incəsənətə güclü marağından söhbət açaraq onun xarakterindəki gizli cizgiləri və cizgilərdəki ümumbəşəri ideyaları ətraflı açıb göstərir. Fatma xanım yazır:

> *«Zərifə xanım hələ uşaqlıq illərindən elmə və incəsənətə eyni dərəcədə meylli idi. Atası Əziz Əliyev də bütün varlığı ilə övladlarına sadə bir həqiqəti aşılaya bilmişdi ki, elm insanlara sadəcə olaraq elmi həqiqətləri dərk etdirə bilər. Odur ki, tez-tez bu sözü təkrar etməyi xoşlayırdı: - «Əgər həkim təkcə həkimdirsə, deməli, o, pis həkimdir». Bu mənada Zərifə xanım yüksək peşəkarlıqla yanaşı səmimi insani münasibətləri hər şeydən üstün tuturdu. Zərifə xanımın boya-başa çatdığı ailədə anası Leyla xanımın da təsiri böyük idi».*

Zərifə xanım bir ana kimi də xalqımızın milli, mənəvi, əxlaqi dəyərlərini özündə cəmləşdirirdi. İki övlad anası idi, məsul vəzifələrdə işləməyinə baxmayaraq, yük-

sək evdarlığı, qayğıkeşliyi ilə də başqalarından fərqlənirdi. Sadəlik onun əsl gözəlliyi idi.

Professor Adil Nəcəfovun Zərifə xanım Əliyeva haqqında məqaləsində oxuyuruq:

*«Zərifə xanımın xarakterinin üzvi tərkib hissəsi olan minnətdarlıq hissini xüsusilə qeyd etmək istərdim. Bu hissi mübaliğəsiz olaraq, insan qəlbinin barometri, onun həqiqi sərvəti adlandırmaq mümkündür. Yumor duyğusu, təbii təvazökarlığı, zəngin təxəyyülü Zərifə xanım Əliyevanın şəxsiyyətinin məğzini təşkil edirdi. Ona xas olan xeyirxahlıq, qəlbinin və ruhunun parlaq təravətini həmişə qoruyub saxlamaq qüdrəti mənəviyyat məsələlərində irili-xırdalı hər şeyə qiymət verən bir insanın qiymətinin əyani göstəricisidir. O, elə professorlardan idi ki, təkcə öyrənmirdi, həm də canlı peşəkarlıq və müdriklik timsalı idi. Zərifə xanım tələbələrlə, gənc həkimlərlə söhbət edərkən onlara həssaslıq və diqqətlə yanaşırdı. Bu isə onlar üçün vətəndaş yetkinliyinin məktəbi idi. Mən dəfələrlə onun çıxışlarına qulaq asmışam. O, həmişə məntiqlə və eyni zamanda səmimi danışar, yüksək natiqlik qabiliyyəti ilə fərqlənər və entuziazm doğurardı. Zərifə xanım elə nadir şəxsiyyətlərdən idi ki, tale ona adicə sözlərlə insanların qəlbində həyat eşqi oyatmaq qüdrəti vermişdi. Onunla danışmaq, ona qulaq asmaq çox maraqlı idi. O, qeyri-adi düşüncə tərzi ilə müsahibini heyran edir, ən adi həyat həqiqətlərində yenilik və başərilik işığı yandıra bilirdi».*

Zərifə xanım Əliyeva gəncliyə, yeni nəslə həmişə böyük ümidlərlə baxırdı. Onun elmi-pedaqoji yaradıcılığının əsasında elmi biliklərə yiyələnmək üçün daim axtarışda olan, düşünən, çevik gənclik və yeni nəsil dayanırdı. O, övladları Sevil və İlhamın da təlim-tərbiyəsində məhz bu amili əsas götürürdü.

Əliyevlər nəsli ədəbiyyat və incəsənətlə də sıx bağlı olmuşdur. Böyük musiqi və ədəbiyyat xadimləri ilə ailəvi yaxınlıq Əliyevlərin yeni yaranan nəslində də yüksək estetik zövq, bədii təfəkkür, obrazlı düşüncə tərzini inkişaf etdirirdi. Məhz buna görə də Əliyevlər nəslinin hər bir nümayəndəsi Azərbaycanın mədəniyyətinin inkişafında müstəsna xidmətləri olmuş şair və yazıçılara, bəstəkarlara, rəssam və heykəltəraşlara, müğənnilərə daim yüksək rəğbət və ehtiram bəsləmişlər. Vaxtilə Ulu Öndər Heydər Əliyev bu məqamı xüsusilə vurğulayırdı: «Azərbaycanın incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimləri ilə onun çox yaxın, mehriban və ailəvi münasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yüksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı. Həmin adamlar da onunla yaxın olmaq istəyirdilər.

Dünya şöhrətli alim M.C.Cavadzadənin Zərifə xanım Əliyeva haqqında xatirələrindən:



*«Şərq aləmində geniş yayılmış məsəllərinin birində deyilir ki, əgər sən təkcə yaxşı həkimsənsə, yaxşı həkim ola bilməzsən. Həyatdan vaxtsız köçmüş görkəmli alim, həssas həkim, sədaqətli və etibarlı dost kimi tanınan Zərifə Əziz qızı Əliyeva haqqında düşünəndə hər dəfə bu müdrik kəlamı xatırlayıram. Bu və ya başqa hadisənin əsl böyüklüyü, qısa insan həyatının həqiqi əhəmiyyəti vaxt keçdikcə daha aydın üzə çıxır. Zaman hər şeyi zərgər dəqiqliyi ilə ölçür və qiymətləndirir. Əgər onun əziz xatirəsi sadə, göz yaşı kimi dupduru duyğuları zəngin olmasaydı, əgər onun elmimizə bəxş etdiyi böyük töhfələrlə öyünüb ovunmasaydıq, ağrılı-acılı bir fikir - Zərifə Əziz qızının artıq dünyada olmaması, İnstitutumuzun bütün əməkdaşlarını hər dəqiqə, hər an sarsıdar, əlimizi işdən soyudardı. Zərifə xanım bu gün öz «Oftalmologiya» kafedrasının bir çox əməkdaşlarına, geniş mənada götürdükdə bütün kollektivimizə öz təsirini itirməmişdi. Bunun dərk edilməsi gözümüzün, könlümüzün acısını bir az yumşaldır».*

M.C.Cavadzadənin məqaləsindən də aydın görünür ki, Zərifə xanım Əliyeva hərtərəfli tarixi şəxsiyyət kimi hamının qəlbinə hakim kəsilib. O mənada ki, Zərifə zərifliyi, Zərifə dostluğu, Zərifə düşüncəsi kimin yaddaşında qalıbsa, o da özünü cəmiyyətin, zamanın içində qürurlu və zəngin hesab edir.

Aşağıda təqdim etdiyimiz sətirlər görkəmli tarixçi alim Püstə Əzizbəyovanın Zərifə xanım Əliyeva haqqında yazdığı xatirəsindəndir:

*«Zərifə Əziz qızı Əliyeva xatirələrini qələmə alıb, duyğularımı bölüşməyə uzun zamandır ki, əlim gəlmirdi. Elə hey özümə sual verirdim, görəsən şahidi və iştirakçısı olduğum hadisələrin məğzini ifadə edən sözlər tapmaq mənə qismət olacaqmı? Görəsən, mənim buna haqqım çatırmı? Axı bizim birgə keçirdiyimiz uşaqlıq və gənclik çağlarından (baxmayaraq ki, böyüyəndən də sonra görüşürdük) yadımda qalanların çoxu məhrəm bir fərdilik daşıyırdı. Ancaq orası da var ki, insanın şəxsiyyəti məhz elə həmin uşaqlıq və gənclik illərində formalaşır. Və get-gedə mən daha çox inanmağa başlayıram ki, yeniyetməlik dövrümüzlə bağlı ilk baxışda hətta əhəmiyyətsiz görünən faktlar, hadisələr bizim gələcək xarakterimizi xüsusi bir ziya haləsinə bürüyür, işıqlandırır, sonralar atdığımız addımları aydın şəkildə dərk etməyə imkan yaradır. Zərifə xanım haqqında yazmaq daha çətindir. Özü də ona görə yox ki, itkimizin ağrısı hələ soyumayıb - bu ağrılar hələ uzun müddət onu tanıyanları incidəcək. Ona görə çətindir ki, onun öz əli ilə yaddaşımıza yazılanları dilə gətirməmək, yazıya almamaq mümkünsüzdür. Eyni zamanda adam qorxur ki, Zərifəyə - bir mələk kimi təmiz, ciddi və təvazökar olan əziz bacımıza yabançı olan sözçülüyə yol verə. Məncə bu təvazökarlığın köklərini Zərifənin valideynlərində, Əliyevlər ailəsinin sadə davranışında, xeyirxah, nəcib, diqqətli, qonaqpərvər ruhunda, burada qərarlaşan mənəvi ovqatın təmizliyində axtarmaq lazım gəlir. Qəti surətdə əminəm ki, mahir bir heykəltəraş kimi lap*

*beşikdən insanın qəlbini, ruhunu xeyirxahlığa və gözəlliyə can atımını yaradan, formalaşdıran kamil ev tərbiyəsini dünyanın heç bir universiteti əvəz edə bilməz. Əliyevlər ailəsindəki uşaqların hamısı məhz belə bir tərbiyə almışdır».*

Hər dəfə Zərifə xanımın qızı Sevil Əliyevanın Fikrət Qocanın sözlərinə bəstələdiyi «Sənsiz» mahnısını dinləyəndə qəlbimiz kövrəlir, gözlərimiz yaşla dolur.

*Sən gedəndən bu yerlərdə ətirsizdi güllər,*
*Sənsiz günəşsiz qaldı güllər,*
*Getdin, daha da əziz müqəddəs oldun.*
*Zərif xatirə oldun, uzaq səs oldun.*
*Ürəktək yaxın oldun, görünməz oldun.*
*Əlçatmaz, ünyetməz oldun...*
*Məhəbbəti günəşdən böyük təmizdir.*
*Başım üstə yanacaq hər an.*
*Səndən qalan xatirə mavi dənizdir.*
*Böyüklüyün səmadan dərin, təmizdir.*
*Səndən qalan xatirə mavi dənizdir,*
*Böyüklüyün səmadan dərin, təmizdir.*
*Səndən qalan xatirə mavi dənizdir.*
*Əzizim, həmişə varsan.*

Həyat da çox qəribədir, insanlar da... İnsan ömrü boyu bu qəribəliyi dərk etməyə çalışır. Ancaq... Əsrlər boyu bəşər ölüm deyilən bir hissin əlində aciz qalıb. Ölüm dərk olunmur ki, olunmur. Xalq şairi Hüseyn Arifin bir şeirində deyildiyi kimi:

*İnanır əbədi deyildir həyat,*
*İnanmır ölümə, inanmır ancaq.*

Və yaxud başqa bir şeirdə:

*Torpaqmı anasız qalmasın deyə,*
*Torpağın qoynuna köçür analar.*

Elə bil bu şeir gözəl insan, Azərbaycan xalqının ləyaqətli qızı Zərifə xanım Əliyeva haqqında yazılmışdır. Çünki Zərifə xanım tanınmış elm xadimi olsa da, görkəmində analıq siması daha qabarıq görünür, onun çöhrəsində, baxışlarında hamıya tanış və əziz olan doğma bir qayğı gizlənmişdi. Bu qayğı insanlığın gələcəyə inamının ünvanı kimi görünür.

Azərbaycan qadınının parlaq nümunəsi, mədəniyyət, ədəbiyyat və incəsənət bilicisi olan Zərifə xanım işıq kimi bu dünyanı tərk etdi. Bu təkcə tibb aləminin itkisi deyildi. Bu itki Azərbaycan elminin, mədəniyyətinin itkisi, musiqisinin kövrək notunun susmasından xəbər verirdi. Xalq şairi Bəxtiyar Vahabzadə Zərifə xanımın vəfatı ilə əlaqədar yazdığı şeirdə deyirdi:



*Qəmə şərik varsa, qəmi adla keç,*
*Gör necə dikilib üzünə gözlər.*
*Sevinci böləndə çoxalır sevinc,*
*Kədəri böləndə, azalar kədər.*
*Bu bahar günündə yağmurlu göy də*
*Bu gün için-için qan ağlayırdı.*
*Sənin matəminə Üzeyir bəy də,*
*«Sənsiz»in dili ilə yas saxlayırdı.*

Bəli, Zərifə xanım Əliyeva son mənzilə yola salınan gün Azərbaycan xalqı böyük kədərə qərq oldu. O, həmişə qəlbimizdə qalan, xatirəsi əbədi yaşayan bir insan ömrü yaşadı. Xalq şairi Nəbi Xəzri bu böyük kədərdən təsirlənib bu həzin misraları qələmə aldı:

*Çökdü çiyinlərə ağır-ağır dərd,*
*Vida ümmanının səhifələrində.*
*Neçə min insana ata olan ər,*
*Sanki yetim qaldı yer üzərində.*

*Məhəbbət üstündə ucalar cahan,*
*Sədaqət yollara ilk kəhkəşandır.*
*Qəhrəman oğulla qoşa adlayan,*
*Özü də ən böyük bir qəhrəmandır.*

Azərbaycan təbiəti sanki içini çəkirdi. Xəzərin ləpələri qan ağlayırdı. Kür öz xiffətini içinə çəkirdi. Araz şahə qalxırdı. Muğan düzündə bənövşələrin ləçəklərinə sarılıq çökürdü. Mil düzünün çəmən xalısı saralırdı. Qoşqar başının üstündəki buludları yolub çaylara tökürdü. Zərifəsevərlərin, bütünlüklə xalqımızın ağır kədəri şair və yazıçılarımızın qəlbində şeirə, ağıya çevrildi.

Xalq şairi Nəriman Həsənzadə «Əbədiyyət» şeirində deyirdi:

*Ürək istəsəydin, səndən ötəri,*
*Heç kəs ürəyini əsirgəməzdi.*
*Su gərək olsaydı Arazla, Kürdən,*
*Araz, Kür o səmtə axardı hökmən.*
*Od gərək olsaydı günəşdən əgər,*
*Töhfə gətirərdi günəşi ellər.*

Zərifə xanım Əliyevanın vidalaşma mərasimində dünyanın tanınmış müxtəlif peşə sahibləri, böyük nüfuza malik ictimai xadimlər kövrək xatirələri söyləyir, gözyaşlarını zorla saxlayırdılar.

Sənəti ilə dünyanın konsert salonlarını titrədən Lütfiyar İmanovun səsi gözyaşları içində boğulmuşdu. O, mərhuma canlı insan kimi müraciət edərək:

*- «Əziz Zərifə xanım, Azərbaycanın mədəniyyət və incəsənət xadimləri Sizin işıqlı xatirəniz önündə baş əyirlər. Azərbaycanın şərəfli qızı, Siz doğma respublikamızı çılğın bir məhəbbətlə sevdiniz, ömrünüzün sonuna qədər ona şərəf və vicdanla xidmət etdiniz. Vətən də Sizi heç zaman unutmayacaq. Siz həyatı və musiqini çox sevirdiniz».*

Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunun direktoru, Dövlət mükafatı laureatı M.Krasnov isə Zərifə xanım haqqında xatirələrində yazır:

*«Ölkələrin birində dövlət başçısı seçmək lazım gəlir. Bir çox mübahisələrdən və müzakirələrdən sonra üç namizəd qalır. El ağsaqqalı üzünü toplaşanlara tutub deyir: «Bunlardan biri ağıllı, biri qüdrətli, biri də xeyirxahdır. İndi özünüz seçin!» Hamı xeyirxaha səs verir. Bu mənada Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir cümlə ilə ifadə etməli olsaydım, deyərdim: «O, həm xeyirxah, həm ağıllı, həm də qüdrətli idi!»*

*«Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu «Əvəzolunmaz insan haqqında povest» adlandırardım».*

Bu fikirlərin müəllifi isə Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu oftalmologiya kafedrasının professoru, akademik Filatov adına mükafatın laureatı V.Şmelyovdur.

Dünya miqyaslı siyasətçi Heydər Əliyevin baxışlarına kədər cizgiləri çökmüşdü. O, dünyalar qədər sevdiyi ömür dostunu - Zərifəni əbədi olaraq torpağa tapşırırdı. Bütün siyasi danışıqlarda özünün möhtəşəmliyi ilə fərqlənən Heydər Əliyev indi bu matəm günündə susurdu. Sözünü dillə yox, gözyaşları ilə deyirdi.

Heydər Əliyev Zərifə xanımla həyatın çox ağrı-acılarını dadmışdı. Amma bütün çətinliklərə sinə gərərək, mənalı və şərəfli həyat yaşamışlar. Allah-Təalanın yaratdığı bütün fərqlilər həmişə böyüklüyü ilə seçilib. Zərifə xanım Əliyeva da yuxarıda qeyd etdiyimiz kimi fərqli insan idi. Bu böyük insanın qismətinə ömür-gün yoldaşı kimi isə Heydər Əliyev xarakteri, Heydər Əliyev böyüklüyü, əzəməti və möhtəşəmliyi düşmüşdür. Heydər Əliyev də Allah-Təala tərəfindən seçilmiş insan idi. Bu iki seçilmiş insanın övladı, hazırda müstəqil Azərbaycana rəhbərlik edən İlham Əliyev məhz Heydər Əliyev siyasi məktəbindən dərs alaraq, Zərifə xanımın təbəssümündən səmimiyyət əxz edərək, bu gün Azərbaycanın taleyüklü problemlərini məharətlə həll edir və haqlı olaraq xalqın böyük inam və güvənc yerinə çevrilmişdir. Digər övladları Sevil xanım Əliyeva anası Zərifə xanım kimi Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə qayğı və həssaslıqla yanaşır, yaradıcı insanlara əlindən gələni əsirgəmir. Onun xalq şairi Fikrət Qocanın sözlərinə bəstələdiyi və anası Zərifə xanıma həsr etdiyi «Ana» mahnısı şübhəsiz ki, elegiyadır. Ancaq elegiya insanı yaşamağa, sevməyə, duymağa çağırır. Bu elegiya Azərbaycan mənəviyyatının, ədəbiyyat və incəsənətinin bir gözəl parçası kimi daima yaşayacaqdır:



*Əziz anam, şirin sözlü anam.*
*Qəlbin kövrək, eşqin solmaz bahar.*
*Gülər üzlü, qara gözlü anam,*
*Hara getsən gözün mənə baxar.*

*Ana qəlbin layla olub gəzər,*
*Doğma səsin ömrü, günü bəzər.*
*Qəlbi geniş ana,*
*Həyat verdin mənə.*
*Günəş kimi yana-yana, ana.*
*Mənim günəş anam.*
*Ana, əziz ana,*
*Ana qəlbi başım üstə səma.*

*Ana səsin aydın səhər olar,*
*Ana qəlbin keşik çəkər bizə.*
*Yolum üstə uzaq səfər olar,*
*İşıq olar nurdan düşən gözə.*
*Mənim görən gözüm sənsən, ana.*
*Ömrüm, günüm, sözüm sənsən, ana.*
*Qəlbi geniş, ana.*
*Həyat verdin mənə,*
*Günəş kimi yana-yana, ana.*
*Mənim günəş anam.*
*Ana, əziz ana.*
*Ana qəlbi başım üstə səma.*

Zərifə xanım xoşbəxt bir insan idi. Seçilmişlərin əhatəsində olduğu, onlara dəstək verdiyi üçün... Bu missiyanı Tanrı özü yazmışdı onun taleyinə. İndi aramızda olmadığı bir vaxtda oğlu İlham Əliyevin Heydər Əliyev siyasi kursunun uğurlu davamçısı kimi prezidentlik fəaliyyəti, tale, qismət payı deyilmi? Dövlət xadiminin anası kimi onun göylərdə gəzən ruhu necə də şaddır. İki dahi şəxsiyyətin övladı kimi ölkə başçısı cənab İlham Əliyev xalqına sədaqətlə xidmət edərək, Əliyevlər sülaləsinin adını daim yüksəklərdə tutur, Azərbaycan xalqının əvəzsiz övladları Zərifə xanım və Heydər Əliyevin yarımçıq qalmış arzularını həyata keçirməklə onların ruhlarını sevindirir.

Təbii ki, dünya miqyaslı tarixi şəxsiyyət, Ulu Öndər Heydər Əliyev ailəsinin üzvü olmaq böyük şərəf, eyni zamanda böyük məsuliyyətdir. Bu baxımdan Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva humanist fəaliyyəti, qayğıkeşliyi və həyata keçirdiyi sosial layihələri ilə böyük rəğbət qazanmış və xalqın ümid qapısına çevrilmişdir. Bu gün dünyada birinci ledi statusunda yüzlərlə qadın var, lakin heç də onların hamısı öz statuslarından ictimai mənafelər naminə istifadə etmir-

lər. Amma yüksək insani keyfiyyəti, intellektual səviyyəsi, xeyirxahlığı, qayğıkeşliyi Mehriban xanım Əliyevaya öz statusundan xalqı və milləti üçün bütün bacarığını əsirgəməməyə əsas vermişdir.

Azərbaycan ədəbi tənqidinin və nəsrinin iki nəhəng siması - Mir Cəlal Paşayevin və Nəsir İmanquliyevin ailəsində dünyaya göz açmış, tərbiyə almış Mehriban xanım SSRİ Tibb Elmləri Akademiyasının akademiki Zərifə xanım Əliyevanın və böyük şərqşünas alim Aida xanım İmanquliyevanın ən nəcib, mənəvi təmizlik və paklıq keyfiyyətlərini öz şəxsiyyətində yaşadır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bütün imkanlarını, intellekt və bacarığını xalqımızın mədəniyyətinin təbliğinə, Azərbaycanda təhsilin və səhiyyənin inkişafına, gənc nəslin daha sağlam və hərtərəfli yetişməsinə sərf etməkdədir. Mehriban xanım öz çıxışlarının birində Ümummilli Lider barədə belə deyirdi:

> *«Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətən - Azərbaycan taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı. Azərbaycan üçün Heydər Əliyevin varlığı taleyin Tanrı payıdır».*

Bu gün Mehriban xanımın fəaliyyət proqramına təhsil, səhiyyə, uşaq evləri və internat məktəblərinin maddi-texniki təchizatı, Azərbaycan mədəniyyətinin, xüsusən, muğam və xalq musiqisinin təbliği, ictimaiyyətin bu prosesdə iştirakının fəallaşdırılması sahəsində işlər daxildir. Eyni zamanda Mehriban xanım Əliyeva Ulu Öndərin əbədiyaşar arzularının həyata keçməsində Prezident İlham Əliyevlə yanaşı böyük işlər həyata keçirir.

Bu cəhətdən Dünya Səhiyyə Təşkilatının baş direktoru Marqaret Çan Bakıda səfərdə olarkən Prezident İlham Əliyevlə söhbətləri böyük maraq doğurur:

> *«Kütləvi informasiya vasitələri nümayəndələri və müxtəlif insanlarla söhbətlərinə əsaslanaraq demək istəyirəm ki, Azərbaycan xalqı çox xoşbəxtdir ki, onun sağlamlığına bu cür böyük önəm verən prezidenti var. Səhiyyə sistemində başladığınız islahatlar, bu sahədə irəli sürdüyünüz təşəbbüslər, Neft Fondunun vəsaitlərindən səhiyyənin məqsədləri üçün istifadə olunması, icbari tibbi sığorta sisteminin tətbiqi ilə bağlı planlarınız çox təqdirə layiqdir. Sizin Azərbaycan xalqının rifahına yönəlmiş xidmətləriniz, habelə xanım Mehriban Əliyevanın bu sahədəki fəaliyyəti onu deməyə əsas verir ki, Azərbaycan xalqının gələcəyi etibarlı əllərdədir».*

Akademik Zərifə xanım Əliyeva bizdən ayrılsa da, onun yadigar qoyub getdiyi işıq öz aydınlığını bircə an da azaltmayıb. Bu işıq həmişə bizimlədir, kövrək xatirələrdə əbədiləşib, övladlarında, nəvələrində yaşayır.



# ДОЧЬ ГОСУДАРСТВЕННОГО ДЕЯТЕЛЯ

**По** народному преданию дочь, похожая на своего отца, бывает счастлива в жизни. Она была очень похожа на своего отца, как внешне, так и внутренне. Все благородные качества Азиз муаллима, такие, как любовь к Родине, стремление к процветанию своего народа, обогащению его внутреннего мира, воплотились в его дочери Зарифе ханум. Азиз Алиев был личностью, сыгравшей видную роль в истории нашего народа. На пути к процветанию нашей Родины он сталкивался с огромными препятствиями. Он был человеком, через всю свою жизнь пронесший пламя любви к своему народу, и работая на важных государственных постах, всегда опирался на вечные национальные ценности. Более 20 лет Азиз Алиев трудился за пределами Азербайджана. Во время Великой Отечественной войны - в Иране и Дагестане, затем в Москве. Народный писатель Азербайджана Имран Гасымов писал в своих воспоминаниях о нем так: *«Очень трудно найти человека, который вдали от родной земли посвятил все силы служению своим святым идеалам. Это качество присуще героям».*

Род Азиза Алиева происходил из Иревана. Как и другие дети этой земли, Азиз Алиев и его семья столкнулись с националистической политикой геноцида от рук наших неблагодарных соседей, силой отнявших эти земли у азербайджанского народа. Но несмотря на все трудности, он до конца своих дней все силы, знания и опыт вкладывал в научно-культурное развитие своего народа. Азиз Алиев пришел в этот мир в январе 1897 года в Иреване. Здесь же окончил гимназию. Свое образование Азиз Алиев впоследствии завершил в Военно-медицинской Академии в Санкт-Петербурге. Но армянские шовинисты не давали ему возможности трудиться в Иреване. Азиз Алиев, на себе испытав следы геноцида по отношению к Азербайджанским туркам был вынужден покинуть Иреван и обосноваться в селе Шахтахты в Нахчыване. Ни ужасные события тех дней, ни хитрость и изворотливость армян не смогли сломить эту выдающуюся личность. Благодаря своим знаниям и опыту, он сумел навсегда сохранить свой авторитет и чувство собственного достоинства. На всех высоких должностях выдающийся ученый медицинской науки Азиз Алиев, всегда добивался любви и уважения людей. Совершенно справедливо

академик Мустафа Топчибашев называл его «врачевателем общества». В идеале, общество тоже живой организм, и естественно, ему нужен свой врачеватель. Азиза Алиева невозможно сравнить ни с кем. А знаете почему? Потому, что Азиза Алиева нужно изучать не как отдельную личность, но как целый этап развития в истории отечественной медицины. Создается такое впечатление, что основоположник медицинской науки Гиппократ написал свою клятву для врачей, взяв за образец такие личности, как Азиз Алиев. Листая автобиографию этой выдающейся личности, государственного деятеля, этого «врачевателя общества», одно предложение особенно остро привлекает внимание читателя. В свое время Азиз Алиев сказал своей супруге Лейле ханум о глубокоуважаемом Гейдаре Алиеве такие слова: «Лейла, у Гейдара впереди блестящее будущее». С тех пор прошло очень много времени. И в течении долгого периода мы имели возможность лишний раз убедиться в правоте Азиза Алиева. Действительно, в современной мировой истории Гейдар Алиев привлекает внимание как выдающий личность, талантливый государственный деятель. Не случайно его наследие внимательно и с большим интересом изучает ряд институтов и политологи всего мира. И еще один момент привлекает внимание в книге «Воспоминания» об А.Алиеве: «Несмотря на серьезность характера, Азизу Алиеву было присуще чувство юмора». Он напевал мелодичные напевы, сочинённые его младшей дочерью, оказывал профессиональную помощь старшей дочери в изучении того или иного медицинского процесса, помогал советом и другим своим детям. Но никогда он не брал под опеку их трудовую деятельность. И все его дети совершенно самостоятельно достигли больших успехов в своей деятельности. А.Алиев верил в блестящее будущее как Зарифы ханум, так и всех своих детей, и был уверен в том, что они многое сделают для Азербайджана. Зарифа ханум ясно осознавала политическую картину своего времени. Потому, что ее отец - общественно-политический деятель, известный государственный деятель А.Алиев уже прошел политический круговорот этого общественного строя и по достоинству мог оценить и проанализировать все его явления. Его общественно-политическая деятельность не была гладкой. Естественно, что политика режима «разделяй и властвуй» не обошла его стороной. Потому, что А.Алиев был человеком, горячо любящим свой народ, достойным, талантливым, деятельным. С одной стороны отношение М.Багирова, правящего тогда Азербайджаном, с другой стороны, внимание секретных служб, которые всегда держали А.Алиева под контролем и старались при первой же возможности уничтожить его. Для того, чтобы выжить в этой коварной политике, был нужен высокий ум, глубокие знания и сильная воля.

Организованность А.Алиева, его миролюбие, огромная любовь к своему народу, сильная политика, и конечно же, Всемогущий Господь уберегли его от физической гибели. Общенациональный лидер Г.Алиев во время своего выступления, посвященного 100-летию А.Алиева особо подчеркнул, с какими несправедливостями пришлось столкнуться А.Алиеву и как ему чудом удалось спастись от репрессий 1938 года: «Я должен сказать, что и мне пришлось пострадать от этих репрессий. Я познакомился со своей покойной супругой Зарифой ханум в 1948 году. Через некоторое время я отправился на учебу. В 1950-ом году, вернувшись на родину, я естественно думал о создании семьи. Но в то время мне было запрещено общение с семьей А.Алиева. В 1951 году, после увольнения А.Алиева с работы, мы встретились с Зарифой ханум и она сказала: *«Мне кажется, что мы не сможем больше видеться, потому, что моего отца уволили с работы и выдвинули против него политическое обвинение. А ты работаешь в органах государственной безопасности. И наверное, нам не судьба быть вместе». Я естественно выразил свой протест, и наши отношения продолжились».*

Г.Алиев отметил, что в начале 1953 года все шло к тому, чтобы арестовать А.Алиева и по указу М.Багирова выслать в ссылку его семью: *«Но Бог нам помог. В марте 1953 года умер Сталин, а летом того же года М.Багирова сначала сняли с занимаемой должности, а потом арестовали... И после этого, как говорится, я вышел на свободу и в ноябре 1954 года смог создать семью».*

Г.Алиев вспоминал об А.Алиеве как о простом, всепонимающем и умном собеседнике:

> *«А.Алиев был на редкость замечательной личностью. И как человек, и как отец... В годы работы в Азербайджане и Дагестане он был в тесном контакте с деятелями науки. Он всегда старался теснее общаться в научной среде, потому, что сам был человеком высокообразованным, культурным. Он был всесторонне замечательным человеком».*

Как видно, Зарифа ханум на себе прочувствовала все горести жизни. А после создания своей семьи начался второй, полный трудностей, этап жизни. Ее жизнь была одновременно и сладостной, и горькой. Потому, что человек, с которым она связала свою судьбу, обладал необычайным талантом и был одним из тех, кто особенно отмечен Богом. Как один из руководителей бывшего СССР, Гейдар Алиев всегда находился в эпицентре событий. И бесспорно, что такая точка зрения не приветствовалась жадными до власти людьми. И в Москве, и среди наших недоброжелательных соседей многие его не любили. Бесспорно, что большая политика Гейдара Алиева, его непревзойденный ум и обширные знания помогали ему преодолевать все препятствия и работать во имя свободы народов всего мира. Те удары, которым подвергался Гейдар Алиев, в первую очередь ощущала супруга, его друг жизни Зарифа ханум. Конеч-

но же, Зарифа ханум оставила большой отпечаток во всей политической жизни Гейдара Алиева. Их судьбы, научно-общественная и политическая деятельность временами сильно влияли друг на друга, способствуя тем самым еще большему саморазвитию и самосовершенствованию, а в конечном итоге и взаимодополнению. Каждый из этих двух великих людей, черпая силы друг от друга, расширял свои физические и моральные возможности. Если Гейдар Алиев приходил домой расстроенный, Зарифа ханум встречала его дома ласковой улыбкой, и все проблемы разрешались сами собой. С другой стороны, мудрые советы Гейдара Алиева вдохновляли Зарифу ханум на многие научные открытия и исследования. И бесспорно, что Зарифа ханум остро чувствовала те безжалостные перепетии, с которыми сталкивался Гейдар Алиев в Политбюро ЦК КПСС. Несмотря на то, что все это было ей уже знакомо со времен работы ее отца, Азиза Алиева, полностью все горести и боль Зарифа ханум ощутила только тогда, когда Гейдар Алиев работал в Москве. Все это противостояние отразилось на здоровье Зарифы ханум. Зарифа ханум прекрасно понимала это, и особенно в такие моменты была моральной опорой своему мужу. Впоследствии, в своих воспоминаниях о семье, Гейдар Алиев особенно отмечал:

*«Я очень люблю свою семью и детей. Моя семья и дети всегда вдохновляли меня, заставляли гордиться ими. Они были моей поддержкой, украшали мою жизнь, всегда доставляли мне только радость. Я счастлив, что моя семья никогда не доставляла мне неприятных минут, дети никогда не давали мне повода для беспокойства. Напротив, они всегда дарили мне радость и счастье».*

Азиз Алиев, как поистине мудрый человек, смог привить своим детям чувство уважения и любви к людям, в самом истинном смысле этого слова. Темой главных уроков, которые давал Азиз Алиев своим детям, была доброта и внимание по отношению к людям. Путь каждого из членов этой семьи - образец моральной высоты. Чувственные, спокойные мотивы талантливого пианиста, художественного руководителя ансамбля «Дан улдузу», заслуженного деятеля культуры республики, безвременно ушедшей из жизни Гюляры Алиевой навсегда остались в памяти людей, любящих ее творчество.

Выдающийся ученый, прекрасный человек, доктор медицинских наук, профессор Тамерлан Алиев за период своей деятельности спас от смерти множество людей, подарив их семьям радость и счастье. Он был выдающимся ученым Азербайджана.

Знаменитый онколог, академик Джамиль Алиев в настоящее время является начальником Специальной Медицинской Службы при Президенте Азербайджанской Республики, а также возглавляет Национальный Онкологический Центр. Помимо того, что Джамиль Алиев является опытным специалистом в области онкологии, он еще широко известен своими научными открытиями как в Азербайджане, так и за рубежом. Помимо заслуг в медицине и здравоохранении, он еще и прекрасный организатор. Под его руководством проводятся масштабные научные исследования в области онкологии в онкологических центрах не только Азербайджана, но и СНГ. Действительный член Азербайджанской Национальной Академии Наук и Академик Российской Медицинской Академии Наук Джамиль Алиев добился огромных успехов в лечении и диагностике злокачественных опухолей.

Из воспоминаний директора Онкологического научного центра Минздрава республики академика Джамиля Алиева - брата Зарифы ханум Алиевой:

*«Я не знаю другого столь общительного, отзывчивого, доброго человека, столь заботливой сестры, милосердной и ласковой матери, верной и преданной спутницы жизни, как она, столь доблестной, патриотичной, достойной и добродетельной тюркской женщины… И хотел бы видеть всех азербайджанских девушек и своих детей на высоте ее первозданной чистоты и святости…*

*Я даже сказал недавно корреспонденту газеты «Айдынлыг» Дервишу Джаванширу, пожелавшему написать о сестре моей: «Я бы очень хотел, чтобы моя невестка была похожа на нее. Слово «джан» не сходило с ее уст». Она была мне не сестрой, а матерью… И о каких же ее человеческих достоинствах мне рассказать? Разве перечислить ее благие, добрые дела, отмеченные благородством, великодушием? Моя сестра искренне радела и заботилась о народе, она, как легендарный целитель-логман, искала и находила спасительное средство…*

*Я перенес трудную операцию. После удаления аппендикса возникли осложнения. Не будь моей сестры Зарифы и Гейдара Алиева, вернувших меня к жизни, наверное, я бы сегодня не мог сидеть с вами. В те дни сестра постоянно находилась рядом со мной, подбадривала, утешала, не зная сна и покоя. Наконец благодаря ее неусыпной заботе, участию, милосердию я смог вырваться из лап смерти.*

*У нее было чуткое, исключительно бережное отношение к членам семьи: к Севиль, Ильхаму, внучатам (Лейле, Азеру), родне. Тяжелые дни обострения ее болезни как на киноленте проходят сейчас перед моими глазами. Всех успокаивала: «Я чувствую себя очень хорошо, не тревожьтесь. Ильхам, и ты, Севиль, и ты, Махмуд, ступайте, займитесь своими делами. Не расстраивайтесь*

*из-за меня...» Когда ее навещали близкие, старалась их уверить, убедить в хорошем самочувствии, вставала с постели, садилась. Я как врач в те минуты прекрасно понимал, чего ей это стоило. Никогда не изгладится из памяти... до сих пор у меня на слуху последние слова моей сестры, произнесенные ослабевшим, тихим, но не потерявшим прежней ласковости голосом...*

*Она как свеча таяла на глазах, изо дня в день, как безмолвная звезда, угасала сестра моя Зарифа. Она родилась весной и навеки закрыла глаза за тринадцать дней до дня своего рождения, расставшись с бесконечно любимыми родными людьми...*

*Мы все чувствовали, что отпущенный ей земной срок на исходе, что она доживает свои последние дни, часы. Родившаяся весной, сестра моя была в окружении любимых ею цветов... Мне кажется, она сама явилась на свет из мира, полного весеннего благоухания несметного количества цветов - алых роз, золотых нарциссов... И в роковой день весны - 15 апреля 1985 года моя сестра в объятиях родных азербайджанских цветов на московском кладбище навеки вернулась в то царство цветов...».*

Зарифа ханум, сформировавшаяся в благородной интеллигентной среде, вобрала в себя все положительные качества своей семьи. На протяжении всей жизни она посвящала свои силы и способности служению родному народу, и до последних дней оставалась преданной этой идее. Может быть, это качество берет свое начало от свойственного каждой женщине материнского инстинкта, но с другой стороны, это происходило оттого, что Зарифа ханум всегда принимала чужую боль и страдания за свои собственные. Она понимала, что человек, лишенный общения и помощи, в неопределенных условиях обречен на ужасную жизнь. Может быть, причину ее столь бережного отношения к людям нужно искать именно в этом. Она всегда серьезно занималась проблемами этики, умела высоко ценить личность и самоуважение каждого человека. Зарифа ханум никогда не старалась подчеркнуть преимущества женского пола. Наоборот, она нашла в себе силы для того, чтобы предоставить тем, кого мы называем «сильным полом», возможность считать себя не только равными, но зачастую и доказать своё преимущество. Эта ее точка зрения была большой заслугой, определяющей место женщины в современном обществе, ее социально-общественный статус, и позволяла обогащать сложную психологию внутреннего мира женщины. Зарифой ханум было написано много книг о научных проблемах. Но самым ценным ее произведением было сердце женщины, душа человека, о которой она не писала книг, но создала этот образ на примере собственной жизни. И если кому-либо хоть раз в жизни посчастливилось прочесть хотя бы



одну страницу этой живой книги, он был уже не в состоянии не любить ее. Потому что, в этот момент человек забывал об одиночестве, понимал, что является надеждой для миллионов людей, воспринимал их страдания и боль как свои собственные, и до конца своей жизни оставался верен своим идеалам. И это, бесспорно происходило благодаря ее высокому духовному началу. Это строки из статьи Фатьмы ханум Абдуллазаде. Она писала об интересе Зарифы ханум в молодые годы к науке, искусству, широко раскрыла скрытые черты ее характера и ее общечеловеческие идеи. Фатьма ханум пишет:

*«Еще в детские годы Зарифа ханум в равной степени проявляла склонность и к науке, и к искусству. Их отец Азиз Алиев всей своей сущностью смог привить своим детям одну простую истину: наука может открыть перед человеком только научные истины. Он часто любил повторять эти слова: «Если врач просто врач, значит он плохой врач». И поэтому Зарифа ханум, помимо профессионализма, выше всего ставила доброе человеческое отношение. В семье, где родилась и выросла Зарифа ханум, также огромным было и влияние ее матери, Лейлы ханум. Зарифа ханум, как мать, воплотила в себе национальные, духовные и культурные ценности нашего народа. Она была матерью двоих детей. Несмотря на то, что она работала на ответственных должностях, она отличалась от других тем, что была очень заботливой хозяйкой. Истинной ее красотой была ее простота».*

Профессор Адиль Наджафов в своей статье о Зарифе ханум писал:

*«Я хотел бы особо отметить одно из личностных качеств Зарифы ханум - ее умение быть благодарной. Это чувство без преувеличения можно назвать барометром человеческой души, её истинным богатством. Чувство юмора, природная скромность и великодушие определяли исключительность характера Зарифы ханум. Присущие ей милосердие, человечность, чуткое отношение к нравственным ценностям наглядно показывают всю огромную ценность этого человека. Она была таким профессором, который не просто учил, но был примером профессионализма и мудрости. Во время беседы со студентами, молодыми врачами Зарифа ханум очень внимательно и трепетно к ним относилась. Для них это была настоящая школа гражданской зрелости. Я много раз слушал ее выступления. Она была талантливейшим оратором, говорила с большим энтузиазмом, в ее речи всегда чувствовалась логика, но од-*

*новременно и доброта. Зарифа ханум была той неповторимой личностью, которая самыми простыми словами умела найти дорогу к сердцам людей, возродить в них любовь к жизни. Было очень интересно говорить с ней, слушать ее. Она поражала собеседника своим неповторимым способом мышления, умением зажечь самые простые жизненные истины огнем новизны и человечности».*

Зарифа ханум смотрела на молодое, новое поколение с большой надеждой. Думающая, деятельная, жаждущая знаний молодежь составляла основу ее научно-педагогической деятельности. Это было основным фактором в обучении ее детей - Севиль и Ильхама. Род Алиевых был очень близок к литературе и искусству. Тесная дружба семьи Алиевых с выдающимися деятелями музыки и литературы развивал у молодого поколения этой семьи высокий эстетический вкус, художественное и образное мышление. Поэтому каждый представитель этого славного рода всегда относился с огромным почетом к представителям культуры Азербайджана - поэтам и писателям, художникам и скульпторам, певцам.

Гейдар Алиев особо подчеркивал:

*«У нее были очень близкие, семейные отношения с такими великими деятелями азербайджанского искусства и литературы, как Узеир Гаджибеков, Муслим Магомаев, Бюльбюль, Ниязи, Самед Вургун, Сулейман Рустам, Гара Гараев и др. Все это оттого, что она была очень интеллигентным, высокообразованным и культурным человеком, всегда стремящимся общаться в этой среде. Эти люди высоко ценили такое отношение к себе и всегда стремились к ней».*

Из воспоминаний всемирно известного ученого М.Дж.Джавадзаде о Зарифе ханум Алиевой:

*«В одной широко известной восточной пословице говорится, что если ты только хороший врач, ты не сможешь быть хорошим врачом. Каждый раз, вспоминая о выдающемся ученом, замечательном враче, верном и надежном друге, безвозвратно ушедшей из жизни Зарифе ханум Алиевой, я вспоминаю это изречение. Только по происшествии времени можно по достоинству оценить то или иное событие, или человека (понять их ценность). Время все измеряет и оценивает с ювелирной точностью.*

*Если бы память о ней не вызывала чистые, как слеза, чувства, и если бы мы самонадеянно не ссылались бы на подаренные ею науке открытия, то горькая мысль о том, что Зарифы ханум больше нет в этом мире, потрясала бы сотрудников нашего института каждую минуту и охладила бы нас к работе. Зарифа ханум и сегодня не утратила своего влияния на сотрудников кафедры Офтальмологии и на наш большой коллектив, в широком смысле этого слова. Понимание этого немного смягчает нашу боль».*

